# Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin 2018-ci ilin yekunları üzrə görülmüş işlər barədə ətraflı HESABATI

2018-ci ildə ölkəmizdə aparılan struktur və iqtisadi islahatlar çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində əqli mülkiyyət sistemində əhəmiyyətli təşkilati və funksional dəyişikliklər baş vermişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səyləri nəticəsində Azərbaycanın yeniləşməsinin, sosial-iqtisadi islahatların uğurla reallaşdırma qüdrətinə malik olmasının, iqtisadiyyatının diversifikasiyasının və innovativ inkişaf yolunun tərkib hissəsi kimi əqli mülkiyyət sahəsinin inkişafına yönəlmiş institusional islahatlar çərçivəsində Azərbaycan Respublikası Prezidentinin "İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 20 aprel 2018-ci il tarixli 5 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin və Patent və Əmtəə Nişanları Mərkəzinin birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılmışdır.

Struktur islahatlarının davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi" təsdiq edilmiş, Müəllif Hüquqları Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi və ləğv edilmiş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası Əqli Mülkiyyət Agentliyinin tabeliyinə verilmiş və Agentliyin tabeliyində Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi yaradılmışdır. Nəticədə Əqli Mülkiyyət Agentliyi və tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi və Respublika Elmi-Texniki Kitabxanasından ibarət olan ixtisaslaşmış yığcam vahid dövlət qurumu yaradılmışdır. Yaradılmış dövlət strukturunun tərkib hissələri Əqli Mülkiyyət Agentliyi başda olmaqla zamanın çağırışlarına uyğun olaraq səmərəliliyin artırılması məqsədi ilə Respublika Elmi-Texniki Kitabxanası istisna olmaqla, publik hüquqi şəxs qismində çıxış edirlər. Əqli Mülkiyyət Agentliyi Nizamnaməsinə uyğun olaraq, əqli mülkiyyət sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimləməni və nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən, işçiləri dövlət qulluqçularına və əməyin ödənilməsində mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan dövlət qurumudur. Dövlət başçısının rəhbərliyi altında sahə üzrə aparılan institusional islahat nəticəsində çalışan dövlət qulluqçularının sayı 43 nəfər, işləyənlərin ümumi sayı isə 32 nəfər azaldılaraq, il ərzində bir milyon 100 min manatdan artıq vəsaitə qənaət etmək mümkün olmuşdur. Dövlət büdcəsindən yalnız Əqli Mülkiyyət Agentliyinin dövlət qulluqçularına bərabər tutulan işçilərinin əməyi maliyyələşdirilir. Agentliyin saxlanma xərcləri və tabeliyində olan iki mərkəzin bütövlükdə fəaliyyəti özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilir.

Dövlət başçısının göstərişlərindən irəli gələn daha çevik, daha yığcam və daha məqsədyönlü struktur vasitəsi ilə sahələrin idarə edilməsi, şəffaflığın, səmərəliliyin və cavabdehliyin təmin olunması yeni yaradılmış Əqli Mülkiyyət Agentliyinin başlıca məqsədləri kimi onun qarşısında duran vəzifələri əhəmiyyətli dərəcədə dəyişmişdir. Bu gün Əqli Mülkiyyət Agentliyi qarşısında duran əsas vəzifələr Müəllif Hüquqları Agentliyinin əsas vəzifələri olan müəllif və oxşar hüquqların qorunması və təmin edilməsi, rəqəmli hüquqların idarə edilməsi və kontrafaksiya və piratçılığa qarşı mübarizə ilə yanaşı, sənaye mülkiyyəti obyektlərinin idarə edilməsi və bu idarəçiliyin

zamanın müasir tələblərinə uyğun təşkil edilməsi, patent və əmtəə nişanlarına dair müraciət edən şəxslər üçün dürüstlüyün, açıqlığın və şəffaflığın təmin edilməsidir. Bununla yanaşı, ərazisi azalmış, müxtəlif əlverişsiz yerlərə səpələnmiş, fondlarının müəyyən hissəsi itirilmiş və yarasız vəziyyətə salınmış, nəticədə istifadəçilərini və nüfuzunu itirmiş Respublika Elmi-Texniki Kitabxanasının fəaliyyətinin müasir tələblərə uyğun yenidən qurulmasıdır.

Sənaye mülkiyyəti ilə bağlı qarşıdakı əsas prinsip elmi-tədqiqat nəticələri olan yeni texnologiyaların tətbiqinin təmin olunması, fayda gətirməsi, cənab Prezidentin iqtisadi sahədə apardığı islahatlar siyasətinə uyğun olmasıdır. Əqli mülkiyyət hər şeydən öncə innovasiyaların cəlb edilməsi, texnologiyaların tətbiqi, elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılması üçün bir vasitə olmalıdır, daha çevik idarəetmə mexanizmlərindən istifadə edilməklə texnologiyaların tətbiqinə, elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılmasına nail olunmalı, bütün fəaliyyət cənab Prezidentin iqtisadi sahədə həyata keçirdiyi islahatlar siyasəti ilə müəyyən edilən vəzifələrin icrasına xidmət etməyə yönəldilməlidir.

Təhlil göstərir ki, dövlət başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasəti ilə müəyyən edilən vəzifələrin icrası Əqli Mülkiyyət Agentliyi tərəfindən aşağıdakı vacib amillər nəzərə alınmaqla həyata keçirilməlidir:

- ali təhsil və elm sistemində baş verən radikal transformasiya nəticəsində 3.0 (təhsil, tədqiqatlar və biliklərin kommersiyalaşması) universitetlərin yaranması, buna əsasən texnologiyaların kommersiyalaşması və transferinin ön plana çıxarılması;
- elmi-tədqiqat nəticələrinin tətbiqini gözləyən nəzərəçarpan ehtiyatların mövcudluğu və onların həyata keçrilməsi üçün məqbul şəraitin yaradılması;
- KOS-ın iqtisadi rolunun və innovasiya imkanlarının artırılması, burada əqli mülkiyyət siyasətinin dəstəklənməsi, texnoloji innovasiyaların stimullaşdırılması;
- əqli mülkiyyətin yeni fəaliyyət konteksti ilə bağlı onun dəyişmiş rolunun nəzərə alınması, sərvətlərin yaranma mərkəzinin maddi aktivlərdən qeyri-maddi aktivlərə, intellektual kapitala yönəlməsi və investisiya axınlarının əqli mülkiyyətə istiqamətlənməsi.

Əqli Mülkyyət Agentliyi qeyd olunan vəzifələrin icrasına Müəllif Hüquqları Agentliyi kimi fəaliyyət göstərdiyi dövrdə başlamışdır. Misal kimi Müəllif Hüquqları Agentliyi, Təhsil Nazirliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə hazırladıqları “Universitet və elmi-tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üçün milli Layihə”ni göstərmək olar. Həmin Layihənin icrası ilə bağlı 2017-ci ildə Agentliyin iştirakı ilə Təhsil Nazirliyi və ÜƏMT arasında Birgə Bəyannamə imzalanmış və bir neçə beynəlxalq konfrans və seminar keçirilmişdir.

Həmçinin ÜƏMT-nin Baş direktoru cənab Frensis Qarrinin 2018-ci il 4 – 6 iyun tarixlərində Azərbaycan Respublikasına rəsmi səfər Proqramı çərçivəsində “Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi” mövzusunda keçirilmiş beynəlxalq konfransı və “Qeyri–maddi aktivlər və qlobal dəyərlər zənciri: İqtisadiyyat innovasiyaların faydalarından necə yararlanır?” mövzusunda regional seminarı, universitet və elmi-tədqiqat institutlarında yaradılmış startapların nailiyyətlərini nümayiş etdirən sərgini qeyd etmək olar. Bu sərgidə 21 startap-layihə nümayiş etdirilmiş, onların 16-sı 7 yerli universiteti, 2-si özəl şirkəti, 3-ü AMEA-nı (Yüksək Texnologiyalar Parkı) təmsil etmişdir.

18 dekabr 2018-ci il tarixində ÜƏMT-nin Cenevrədəki mənzil-qərargahında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Əqli Mülkiyyət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, ÜƏMT və Beynəlxalq Telekommunikasiya İttifaqının birgə keçirdikləri “Azərbaycanda əqli mülkiyyətin inkişafı və onun regiona təsiri: innovativ və yüksək texnologiyalar üzrə startapların təqdimatı”

mövzusunda beynəlxalq konfrans və Azərbaycanın innovativ və yüksək texnologiyalı startaplarına həsr olunan sərginin təşkil olunması da vacib tədbirlərdəndir.

Bununla yanaşı, Əqli Mülkiyyət Agentliyi əvvəlki ənənəvi olan mədəni irsin qorunması, müəllif hüquqlarının qorunması və təminatı, o cümlədən rəqəmli hüquqların idarə edilməsi və kontrafaksiya və piratçılığa qarşı mübarizə funksiyaları ilə yanaşı, yuxarıdakı amillər nəzərə alınmaqla yeni vəzifələrin yerinə yetirilməsinə - sənaye mülkiyyəti sahəsində aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirilməsinə başlamışdır:

• İxtiraçılara dəstək məqsədilə beynəlxalq patent qeydiyyatı PCT sisteminin təşviqi və dövlət tərəfindən xərclərin bir qisminin ödənilməsi, həmçinin ölkəmizin patent alınmasını sadələşdirən Patent Hüququ Müqaviləsinə (PLT) qoşulması və Texnologiyalara və innovasiyalara dəstək mərkəzinin yaradılması;

• Universitetlərdə, elmi-tədqiqat institutlarında və KOS subyektlərində IP ofislərin yaradılması, onların texnologiyaların kommersiyalaşması və transferi ofislərinə (TKTM) çevrilməsi;

• Elm və sənaye arasında bağlantı, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artması və tətbiqi xarakter daşıması üçün Texnologiyaların Transferi Mərkəzləri və Əqli Mülkiyyət Hüquqlarının Kommersiyalaşlması Mərkəzlərinin, o cümlədən Əqli Mülkiyyət Agentliyinin nəzdində yaradılması;

• “Made in Azerbaijan” brendinin təşviqi, “Əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid Sazişi” çərçivəsində qorunan yerli əmtəə nişanlarının xərclərinin qismən dövlət hesabına ödənilməsi, kütləvi istehsal olunan və fərdi toxunan xalçalarımız üzərində Azərbaycana aid loqonun ilmələrlə toxunmasına dəstək verilməsi və qeydiyyata alınması.

Şəffaflığı təmin etmək, patent, əmtəə nişanlarının sifarişçiləri və ekspertiza və digər xidmət aparanlarla kontaktsız münasibət qurmaq məqsədilə ASAN tipli “Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf” “PƏNAH” rəqəmli informasiya sisteminin yaradılması işlərinə başlanmışdır.

Əqli mülkiyyət (patent) sistemi qarşısında duran əsas vəzifələr və onların yerinə yetirilməsi istiqamətləri aşağıdakı sxemdə təsvir olunmuşdur.




Agentliyin fəaliyyətində səmərəliliyi artırmaq məqsədi ilə növbəti həllini gözləyən məsələlərdən biri büdcədən tam maliyyələşən Respublika Elmi-Texniki Kitabxanasının publik hüquqi şəxsə çevrilməsi və dövlət büdcəsindən qismən maliyyələşdirilməsidir.

Qeyd etmək lazımdır ki, Respublika Elmi-Texniki Kitabxanası Əqli Mülkiyyət Agentliyinin tabeliyinə veriləndən sonra buradakı mövcud vəziyyət təhlil edilmiş və müəyyən edilmişdir ki, 1957-ci ildə yaradılmış, unikal müəllif kitablarını, patent və normativ-texniki sənədlər fondunu özündə cəmləşdirən respublika əhəmiyyətli kitabxana olan Azərbaycan Respublikasının Elmi-Texniki Kitabxanasında (RETK) həm Azərbaycan, həm SSRİ, həm də dünya ölkələrinin sahə üzrə materialları toplanmışdır. RETK-in ümumi fondunun 14862581 çap vahidi olduğu bildirilir.

Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanı ilə Əqli Mülkiyyət Agentliyinin tabeliyinə verilənədək, RETK ləğv edilmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərirdi (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarına əsasən 2002-ci ildən). Daha öncə isə Azərbaycan Dövlət Plan Komitəsi (1957), Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsinin (1993-2001) nəzdində fəaliyyət göstərmişdir.

RETK (özü və fondları) müxtəlif dövrlərdə ayrı-ayrı ünvanlarda yerləşdirilmişdir. Qeyd etmək lazımdır ki, neçə nəsil alim, professor və akademiklərin yetişdirilməsində xüsusi rol oynayan və minlərlə namizədlik və doktorluq dissertasiyaları, araşdırmalar, ixtira və texniki normativ-sənədlərin hazırlanmasında müstəsna və unikal məlumat mənbəyi olan zəngin kitabxananın vaxtilə əsas binası Bakı şəhərinin mərkəzində (keçmiş H.Hacıyev, indiki Azərbaycan prosp.) arxitektur binanın birinci mərtəbəsində yerləşmiş, həmin binanın kommersiya məqsədləri ilə özəlləşdirilməsi nəticəsində isə şəhər mərkəzindən kənara köçürülmüşdür (bina 2003-cü ildə özəlləşdirilmişdir). Daha sonra RETK-ə ayrılmış müxtəlif yerlər tam və ya qismən özəlləşdirilmiş, nəticədə RETK-in yerləşdiyi ərazilər fiziki olaraq təxminən iki dəfə azalmışdır. Bu da öz növbəsində ədəbiyyatların yerləşdirilməsində qaçılmaz neqativ nəticələrə səbəb olmuşdur.

Bununla yanaşı, müxtəlif dövrlərdə aparılan çoxsaylı “köçlər” zamanı və qayğısız yerləşdirmələr nəticəsində RETK-in unikal və bərpaolunmaz fondundan çoxlu sayda kitablar, diafilmlər və sənədlər məhv olmuş, itirilmiş və ya yararsız vəziyyətə salınmışdır.Ölkə başçısının yuxarıda göstərilən Fərmanından irəli gələn məsələlərin həlli məqsədilə RETK-in balansında olan əmlak, kitab və sənədlər fondunun yoxlanması və təhvil alınması məqsədilə yerində baxış keçirilmişdir. Əqli Mülkiyyət Agentliyinin əməkdaşlarının monitorinqi zamanı aşkar edilmiş acınacaqlı vəziyyət barədə müvafiq arayış tərtib olunaraq Nazirlər Kabinetinə göndərilmişdir. Hazırda Nazirlər Kabinetinin göstərişlərinə əsasən zəruri tədbirlər görülür.

Agentliyin 2018-ci ildəki fəaliyyətinin yekunlarına aid bu hesabatda dövlət başçısı cənab İlham Əliyevin iqtisadiyyat və idarəçilik sahələrində islahatların aparılması ilə bağlı fərman və sərəncamlarından, Dövlət Proqramlarından, icrası Əqli Mülkiyyət Agentliyi tərəfindən həyata keçirilən 7 qanundan (“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, “İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında”, “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında”, “Məlumat toplularının hüquqi qorunması haqqında”, “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında”, “Patent haqqında” və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Qanunlar) və digər müvafiq sənədlərdən irəli gələn aidiyyəti vəzifələrin yerinə yetirilməsi üzrə görülmüş tədbirlər və əhaliyə göstərilən dövlət xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətlərində fəaliyyət barədə məlumatlar öz əksini tapmışdır.

## 1. Əqli mülkiyyət və iqtisadi inkişafla bağlı dövlət başçısı İlham Əliyevin iqtisadiyyat sahəsində islahatların aparılmasına dair fərman və sərəncamlarndan irəli gələn vəzifələrin icrası

Ölkəmizdə aparılan iqtisadi islahatlar çərçivəsində elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması və tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi və həyata keçirilməsi iqtisadi inkişafın sürətləndirilməsində vacib rol oynayır və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"ndan, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"dan, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 02 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"ndan, Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 06 dekabr tarixli 1138 nömrəli Fərmanından irəli gələn aidiyyəti vəzifələr hesabat ilində yerinə yetirilmişdir.

Hesabat dövründə göstərilən proqram xarakterli sənədlərin aidiyyəti bəndlərinin icrası çərçivəsində elmi tədqiqat nəticələrinin kommersiyalaşdırılması, tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi və həyata keçirilməsi, eyni zamanda universitetlərdə və elmi tədqiqat müəssisələrində aparılan elmi tədqiqat işlərinin nəticəsi olaraq yaradılan yüksək texnologiyaların iqtisadiyyatda tətbiqi üçün əlverişli şəraitin yaradılması və iqtisadi səmərəsinin artırılması üzrə ölkəmizdə aparılan işlərə dəstək verilməsi məqsədi ilə Agentlik tərəfindən il ərzində bir sıra tədbirlər həyata keçrilmiş, o cümlədən Agentliyin təşkilatçılığı və dəstəyi ilə kreativ iqtisadiyyat, əqli mülkiyyətin iqtisadi inkişafda rolu, elmi tədqiqat nəticələrinin praktiki tətbiqi və kommersiyalaşdırılması, yeni startapların yaradılması və nailiyyətlərinin nümayişi və s. mövzuları əhatə edən 7 (onlardan 4-ü beynəlxalq, 3-ü milli) konfrans, regional seminar keçirilmiş, universitetlərdə və elmi-tədqiqat müəssisələrində yaradılan yeni startaplar arasından seçilmiş uğurlu startapların nailiyyətlərini nümayiş etdirən 2 sərgi təşkil olunmuşdur.O cümlədən:

- Agentliyin Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Fondu ilə birgə təşkil etdiyi "**İnformasiya cəmiyyətində müəlliflik və digər əqli mülkiyyət hüquqlarının mədəni, iqtisadi və hüquqi əhəmiyyəti**" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi və müsabiqənin yekunlarına həsr olunan 26 yanvar 2018-ci il tarixli konfrans.

Bu tədbirin başlıca məqsədi əqli mülkiyyət sahəsinin fəaliyyətinin, dayanaqlı inkişafının və şəffaflığının təmin olunması, Azərbaycan xalqına məxsus mədəni irsin qorunması, erməni plagiatçılığına qarşı mübarizə, müəlliflik hüququna və əlaqəli hüquqlara əsaslanan kreativ sənayenin müasir iqtisadiyyatda rolunun və əqli mülkiyyətin bilik və informasiya cəmiyyətinə təsirinin artırılması, o cümlədən bu sahədə hüquqi maarifləndirmənin genişləndirilməsi işinə kütləvi informasiya vasitələrinin cəlb edilməsi olmuşdur.

- 23 aprel 2018-ci il tarixində Agentliyin Ailə, Qadin və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə keçirdiyi **"İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı güvvəsi"** mövzusunda dəyirmi masa.

Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə keçirilən və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunan və ÜƏMT tərəfindən beynəlxalq səviyyədə elan edilmiş "İnnovasiya və yaradıcılıqda qadınlar: dəyişikliyin aparıcı qüvvəsi" devizi altında keçirilən bu tədbirdə xüsusi qeyd olunmuşdur ki, qadınlarımızın səyləri nəticəsində hər gün həyatımızı zənginləşdirən və bilik sərhədlərimizi genişləndirən yeni ideyalar, faydalı kəşflər və ixtiralar əldə edilir. Yaradıcılıq sahələrində isə (kino, musiqi, ədəbiyyat, incəsənət, moda, dizayn və s.) qadınlar daim mədəniyyət konsepsiyasının özünü yenidən dərk edərək, bədii və yaradıcılıq ifadəsinin hüdudlarının axtarışı ilə bizi yeni dünyaların kəşf olunmasına və qavranılmasına sövq edirlər.

Bu tədbirin əsas məqsədi əqli mülkiyyət mədəniyyətinin formalaşdırılmasına dəstək vermək, biliklər cəmiyyətində kreativlik və yenilikçilik amillərinin stimullaşdırılmasında əqli mülkiyyətin əvəzedilməz əhəmiyyətini qabarıq göstərmək olmuşdur.

- 5 iyun 2018-ci il tarixində Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi, Təhsil Nazirliyi, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) və Avrasiya Patent Təşkilatının (EAPO) birgə təşkilatçılığı ilə keçirilmiş 2 tədbir – "Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi" adlı beynəlxalq konfrans (Bu tədbir Əqli Mülkiyyət Agentliyi və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən dəstəklənən "Universitet və elmi tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üçün milli Layihə" çərçivəsində təşkil edilmişdir. Tədbirdə Azərbaycan universitetləri və elmi-tədqiqat institutlarında yaradılmış startap layihələri arasından seçilmiş ən yaxşı startaplar və onların nailiyyətləri nümayiş etdirilmiş və beynəlxalq və yerli iştirakçılar tərəfində böyük maraqla qarşılanmışdır) və "Qeyri-maddi aktivlər və qlobal dəyər zəncirləri: İqtisadiyyat innovasiyanın faydalarından necə yararlana bilər?" adlı birgə regional seminar.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş direktoru cənab Frensis Qarrinin cari ilin 4 – 6 iyun tarixlərində Azərbaycan Respublikasına rəsmi səfər Proqramı çərçivəsində keçirilmiş bu tədbirlərin əsas məqsədləri əqli mülkiyyət sahəsinin səmərəliliyinin göstəricisi olan yaradıcı şəxslərin əqli mülkiyyət hüquqlarının qorunma səviyyəsinin yüksəldilməsi, ölkənmizin iqtisadi potensialının artmasına sahə tərəfindən verilən töhfənin davamlı inkişafına, o cümlədən müasir hüquqi bazanın yaradılması və onun işlək olmasını təmin edən mexanizmlərin yaradılmasına dəstək verilməsi və bu işdə qabaqcıl beynəlxalq təcrübə və imkanlardan yararlanılmasına xidmət göstərilməsi olmuşdur.

Tədbirin Proqramına uyğun olaraq keçirilən sərgidə patent və patent qabiliyyətli ixtiralar, o cümlədən Azərbaycan Dövlət Neft və Sənaye Universitetində yaradılmış "Smart Keyboard" - bir çox əlifbalardan istifadə edən kompüter istifadəçiləri üçün rahatlıq yaradan qurğu; Milli Aviasiya Akademiyasının məhsulu olan "Kənd təsərrüfatı bitkilərinin toxumlarının səpinqabağı ozonlaşdırılması üsulu" – İnnovativ ozonlaşdlırma texnologiyaları əsaslı elmi-praktiki cihazqayırma istiqamətlərinin aidiyyəti avadanlıqlarının aviasiyada, tibbdə, kənd təsərrüfatında istifadəsi metodu; Azərbaycan Texniki Universitetində işlənmiş "Zirehli texnikanın reduktoru və dönmə mexanizmi", "Liftin baş intiqalı", "Helikopterlərin baş reduktoru", "Mancanaq dəzgahının yeni konstruksiyası" layihələri; "İdrak Technology Transfer" MMC tərəfindən hazırlanmış "Pərsiz gəmi hərəkətvericisi" – maye və qazabənzər mühitlərin axınının formalaşdırılmasının orijinal metodu və digərləri nümayiş etdirilmişdir. Ölkə rəhbərinin innovativ inkişafa verdiyi önəmə, bununla bağlı çağırışlarına cavab olan bu layihələr Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli, dayanıqlı və təhlükəsiz inkişaf modelinin təşəkkül tapmasına istiqamətlənmiş addımlardandır.

Qeyd olunan tədbirlər Proqramı çərçivəsində cənab F. Qarrinin ölkəmizin yüksək vəzifəli rəsmi şəxsləri ilə görüşləri keçirilmiş, bu görüşlərdə Azərbaycan Respublikası və ÜƏMT arasında əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi perspektivləri müzakirə predmeti olmuş, səfər Proqramına uyğun olaraq, Azərbaycan Respublikası Hökuməti və ÜƏMT arasında əməkdaşlıq üzrə yeni Anlaşma Memorandumu imzalanmışdır. Memorandumun məqsədi tərəflər arasında əməkdaşlığı və birgə fəaliyyətləri, o cümlədən aşağıdakı istiqamətlərdə inkişaf etdirməkdir:

- Azərbaycan Respublikasında milli əqli mülkiyyət strategiyasının işlənilib hazırlanması və həyata keçirilməsi;
- əqli mülkiyyət sistemindən istifadə etmək məqsədilə universitetlərin və elmi tədqiqat institutlarının, təsərrüfat subyektlərinin, xüsusilə kiçik və orta həcmli müəssisələrin (KOM) potensialının artırılması;
- Blokçeyn texnologiyasına əsaslanan platformaların hazırlanması və onun tətbiq olunması da daxil olmaqla, rəqəmsal mühitdə müəllif hüquqlarının idarəçiliyinin təkmilləşdirilməsi üzrə tədbirlərinin həyata keçirilməsi;
- kreativ iqtisadiyyatın davamlı inkişafı və onun ÜDM-dəki payının artırılması üzrə tədbirlərə dəstəyin gücləndirilməsi;
- folklor ifadələri (ənənəvi mədəni ifadələr) və ənənəvi biliklər də daxil olmaqla, qeyri-maddi mədəni irsin sistemləşdirilməsi, identifikasiyası, qeydiyyatı və mübadiləsi sahəsində əməkdaşlığın genişləndirilməsi;
- saxtamalçılığa və piratçılığa qarşı mübarizə tədbirləri də daxil olmaqla, ƏM hüquqlarının təminatı sisteminin gücləndirilməsi;
- əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması sahəsində hüquqi maarifləndirmə işlərinin genişləndirilməsi və s.

Qeyd etmək lazımdır ki, ÜƏMT-nin Baş direktorunun rəsmi səfəri Azərbaycanla bu təşkilat arasında münasibətlərin genişlənməsinə yeni impuls vermiş, ölkəmizin əqli mülkiyyət sahəsinin inkişafına və beynəlxalq səviyyədə nüfuzunun daha da artmasına müsbət təsir göstərmişdir.

- Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İdarəetmə Sistemləri İnstitutunun birgə təşkilatçılığı və Agentliyin dəstəyi ilə 5 iyul 2018-ci il tarixində keçirilmiş **"İnşaatda informasiya texnologiyaları və sistemlərinin tətbiqi imkanları və prespektivləri"** mövzusunda beynəlxalq elmi-praktiki konfrans.

Tədbirdə informasiya-kommunikasiya texnologiyaları əsrində elmin və texnikanın sürətli inkişafı, yeni texnologiyaların, elmi və praktiki innovasiyaların, İT texnologiyalarının həyatın bütün sahələrinə tətbiq olunduğu, o cümlədən müasir texnologiyaların inşaata tətbiqinin inşaat şirkətlərinin işində yarada biləcəyi üstünlüklər, bu sektorun dövrün çağırışlarına operativ uyğunlaşa bilməsi üçün yeni üsulların yaratdığı imkanlar və qeyd olunan texnologiyaların tətbiqi vasitəsilə rahatlıq, mobillik və operativliyin artırılması barədə müzakirələr olmuş, qeyd edilmişdir ki, müasir inkişafda ən mühüm amil elm, təhsil və müasir biliklərdir. İnformasiya-kommunikasiya texnologiyaları da daxil olmaqla, müasir texnologiyalardan bilik və informasiyanın ötürülməsi üçün istifadə olunması qlobal səviyyədə də inkişafın əsas şərtlərindən biridir. Hazırda ölkəmizdə iqtisadi potensialın insan kapitalına çevrilməsi yolunda ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Ehtimal olunur ki, gələcək şəhərlərin tikintisində smart texnologiyaların tətbiqinə daha çox üstünlük veriləcək. Memarlar və inşaatçılar da qabaqcıl texnologiyalardan yararlanmaqla öz işlərini daha mükəmməl şəkildə qura biləcəklər. Ümumiyyətlə, informasiya-kommunikasiya texnologiyalarının inkişafı nəticəsində bu gün artıq bütün sahələrdə yeni alətlər tətbiq olunur, müxtəlif xidmətlər göstərən yeni formalı mexanizmlər yaranır. Konfransda inşaatda informasiya

texnologiyaları və sistemlərinin tətbiqi imkanları və prespektivləri mövzusunda 100-dən artıq təqdimat olmuşdur.

- Əqli Mülkiyyət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və YUNESKO-nun "İnformasiya hamı üçün" proqramının (IFAP) birgə təşkilatçılığı ilə "26-30 oktyabr - İnnovasiya həftəsi" çərçivəsində 30 oktyabr 2018-ci il tarixində keçirilmiş **"İnnovasiyalı inkişafda əqli mülkiyyətin qorunması məsələləri"** mövzusunda dəyirmi masa.

Azərbaycanda ilk dəfə keçirilən "İnnovasiya həftəsi" beynəlxalq sərgi və konfrans çərçivəsində keçirilən bu tədbir Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"nda qarşıya qoyulan hədəflərə çatmaq üçün görülən işlərin tərkib hissəsi olmuşdur. Tədbirdə dövlət başçısı cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində müasir çağırışlara cavab verən, islahatlarla zəngin olan və gələcəyə yönəldilən "Azərbaycanın inkişaf modeli"nin formalaşdığı, bu modelin biznes mühitinin inkişafını, sərmayə qoyuluşunu stimullaşdırdığı, innovasiyalara açıq olan və sosial yönümlüyü nəzərə alan yeni iqtisadiyyat modeli olduğu vurğulanmış, ölkəmizin yeni iqtisadi siyasətinin mühüm qolu – innovativ inkişafa qədəm qoyduğu, qeyri-neft sektorunun sürətlə inkişaf etdirildyi, diversifikasiyanın uğurla həyata keçirildiyi və "Made in Azerbaijan" brendinin təşviqi ilə əlaqədar görülən işlər qeyd olunmuşdur. Məruzələrdə həmçinin innovasiyalara yönələn əqli mülkiyyət siyasətinin məqsədləri açıqlanmış, Əqli Mülkiyyət Agentliyi qarşısında duran əsas məqsədin innovasiyalara dəstək verən əqli mülkiyyət sisteminin formalaşdırılması olduğu göstərilmiş və bu istiqamətdə ölkəmizdə həyata keçirilən tədbirlər barədə məlumat verilmişdir. Tədbirdə Əqli Mülkiyyət Agentliyinin nümayəndələri tərəfindən mövzuya dair 5 prezentasiya edilmişdir.

- Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əqli Mülkiyyət Agentliyi, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı və Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) birgə təşkilatçılığı ilə 18 dekabr 2018-ci il tarixində ÜƏMT-nin baş qərargahında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən Azərbaycanın innovativ və yüksək texnologiyalı startaplarına həsr olunan sərgi və **"Azərbaycanda əqli mülkiyyətin inkişafı və onun regiona təsiri: innovativ və yüksək texnologiyalar üzrə startapların təqdimatı"** mövzusunda konfrans.

ÜƏMT və BTİ-nin nümayəndələri, Cenevrədə akkreditə olunmuş diplomatlar, beynəlxalq təşkilatların, akademik və biznes dairələrinin təmsilçilərinin iştirak etdiyi konfrans və sərgidə Azərbaycan startapçılarının hazırladığı, o cümlədən universitetlərdə və elmi-tədqiqat institutlarında yaradılan 16 layihə təqdim olunmuş və startapların və onların nailiyyətlərinin təqdimatı iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

Sərginin açılışında Agentliyin İdarə Heyətinin sədri tərəfindən qeyd olunmuşdur ki, bu gün Azərbaycan dərin islahatların aparıldığı bir ölkədir. Sosial və iqtisadi sahədə ciddi irəliləyişlər bir çox istiqamətlərdə, xüsusilə qeyri-neft sektoru, kənd təsərrüfatı və digər sənaye sahələrində maliyyə sabitliyinin və iqtisadi artımın bərpasına və təmin olunmasına imkan yaratmışdır. Azərbaycan innovativ inkişaf yolundadır və bütün bunlar beynəlxalq hesabatlarda da öz əksini tapır. Dünya Bankının son "Doing Business" Hesabatında Azərbaycan 190 ölkə arasında 25-ci yeri tutub. Reytinqdə Azərbaycan 10 mövqedən 8-də öz göstəricilərini yaxşılaşdırıb, dünyada islahatların sayına görə öncül mövqeyə çıxıb. Eyni zamanda, ölkəmiz dünyanın 10 ən çox islahat aparan dövləti siyahısına daxil edilib.

Daha sonra vurğulanmışdır ki, Dünya İqtisadi Forumunun qlobal rəqabətqabiliyyətlilik üzrə oktyabrın əvvəllərində yeni metodika əsasında həyata

keçirilmiş növbəti Hesabatına əsasən, Azərbaycan biznesin dinamizminə görə 31-ci, qanunvericiliyin səmərəliliyinə görə 22-ci, hökumətlərin gələcəyə yönlənmiş fəaliyyətləri üzrə 20-ci, İnternet istifadəçilərinin sayına görə 36-cı, əhalinin rəqəmsal vərdişlərinə görə 15-ci və sahibkarlıq risklərinin azlığına görə 21-ci yeri tutur. Müasir iqtisadiyyatda innovasiyalar əsas istehsal faktoru kimi çıxış edərək, resurs qismində əqli mülkiyyətə əsaslanır. Bununla əlaqədar xüsusi vurğulandı ki, Dünya İqtisadi Forumunun Hesabatına əsasən, "Əqli mülkiyyətin qorunması" göstəricisinə görə Azərbaycan 2016-1017-ci ilin göstəricisi ilə müqayisədə 2017-1018-ci hesabat ilində 35 pillə irəliləyərək 36-cı yeri tutur və MDB ölkələri arasında lider dövlətdir.

Tədbirdə Əqli Mülkiyyət Agentliyi və bütövlükdə milli əqli mülkiyyət sistemi qarşısında dövlət başçısı tərəfindən müəyyən edilmiş yeni vəzifələrin icrası ilə əlaqədar əqli mülkiyyət sisteminin və xüsusən sənaye mülkiyyətinin rolunun gücləndirilməsi sahəsində həyata keçirilən tədbirlər, o cümlədən ixtira və patent fəallığı əmsalının yüksəldilməsi və iddiaçılar üçün yeni rəqəmsal xidmətlərin təşkili, universitetlərdə və elmi-tədqiqat müəssisələrində texnologiyaların kommersiyalaşdırılması ofislərinin rolunun artırılması, texnologiyalara və innovasiyalara dəstək və texnologiyaların transferi və kommersiyalaşdırma mərkəzlərinin yaradılması ilə bağlı struktur dəyişikliklərinin gücləndirilməsi və s. istiqamətlərdə ölkəmizdə görülən işlər barədə məlumat verilmiş və bütün bunların dövlət başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasətinə dəstək məqsədlərinə xidmət etdiyi qeyd olunmuşdur.

Tədbir çərçivəsində həmçinin etno-caz musiqisindən ibarət konsert və Azərbaycanın milli mətbəx nümunələrindən ibarət nahar təşkil olunmuşdur.

Qeyd olunanlarla yanaşı, hesabat ilində iqtisadi sahədə elmi tədqiqat işlərinin tətbiqinin əhəmiyyəti nəzərə alınmaqla hazırlanmış "Azərbaycan universitetlərində və elmi tədqiqat müəssisələrində əqli mülkiyyət sahəsində siyasət haqqında" kitabça yenidən çap edilmiş və maraqlı tərəflər arasında yayılmışdır.

Bununla yanaşı, "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nin Əqli Mülkiyyət Agentliyi üzrə icrasının təmin edilməsi haqqında verilmiş müvafiq əmrlə təsdiq edilən Tədbirlər planı çərçivəsində "Milli brendlərimizi qoruyaq (Milli brendlərin hüquqi qorunması və onların müəllif-hüquq nöqteyi-nəzərindən qeydiyyatı)", "Qlobal innovasiya indeksi", "Kreativ iqtisadiyyat və kiçik və orta sahibkarlığın innovasiyalı inkişafı", "İnnovasiyalı inkişaf və əqli mülkiyyət", "İT-İP:Əqli mülkiyyətin gələcəyinə baxış" və s. kitabçalar hazırlanaraq və yenidən işlənərək təkrar çap edilmiş, il ərzində keçirilmiş tədbirlərdə iştirakçılara və maraqlı şəxslərə paylanmışdır. Agentliyin nümayəndəsi Yol Xəritəsinin "3.2.4. Sənaye müəssisələrində milli brendlərin yaradılmasının təşviq edilməsi" tədbirinin icrasının təmin edilməsi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış İşçi qrupun üzvü kimi keçirilən iclaslarda fəal iştirak edir, Agentlik tərəfindən bu bəndin icrası ilə bağlı görülən işlər barədə məlumat verir.

Azərbaycan Respublikası Prezidentinin digər sahələr üzrə fərman və sərəncamlarından irəli gələn aidiyyəti vəzifələrin icrası diqqət mərkəzində saxlanmış, 2018-ci ilin Cümhuriyyət ili elan edilməsi haqqında 10 yanvar 2018-ci il tarixli Fərmanından irəli gələn aidiyyəti vəzifələrin icrası çərçvəsində bir sıra tədbirlər görülmüş, o cümlədən 3 konfrans təşkil olunmuş, bu tədbirlərdə Azərbaycan xalqının zəngin dövlətçilik tarixinin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, onun gördüyü böyük işlər barədə danışılmış, Azərbaycan Xalq Cümhuriyyətin fəaliyyətinə, onun qurucularının xatirəsinə xalqımızın böyük hörmət və ehtiramla yanaşdığı vurğulanmış, dövlətimizin bugünkü uğurları barədə məlumat verilmişdir.

ÜƏMT üzv-dövlətlərinin 24 sentyabr–2 oktyabr tarixlərində Cenevrədə keçirilmiş Baş Assambleyasının 58-ci toplantısı çərçivəsində təşkil edilmiş mədəni tədbirdə Azərbaycanın müasir, ənənəvi mədəni irsindən qaynaqlanan coğrafi göstəriciləri nümayiş etdirilmişdir.

Qeyd etmək lazımdır ki, Əqli Mülkiyyət Agentliyi tərəfindən keçirilmiş bütün tədbirlər cənab Prezident İlham Əliyevin neftdən asılılığı azaltmağa, ixracı stimullaşdırmağa, idxaldan asılılığı zəiflətməyə, Azərbaycan brendlərinin təbliğinə, ümumilikdə qeyri-neft iqtisadiyyatının inkişafını stimullaqşdıran iqtisadi islahatlar siyasətinin dəstəklənməsinə xidmət etmiş, tədbirlər zamanı dünyada baş verən böhranlar fonunda ölkəmizdə dayanıqlı inkişafı təmin edən iqtisadi islahatlar mərhələsinin uğurlu nəticələri barədə məlumat verilmiş, elmi-texniki tərəqqiyə və iqtisadi inkişafa əqli mülkiyətin böyük təsiri, eyni zamanda ölkəmizdə əqli mülkiyyət hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyəti qeyd olunmuşdur.

## 2. Qanunvericilik və normativ hüquqi bazanın təkmilləşdirilməsi.

Ölkəmizdə aparılan struktur və iqtisadi islahatlar çərçivəsində ölkə başçısının 20 aprel 2018-ci il tarixli 5 nömrəli Sərəncamının icrası ilə bağlı bir sıra qanunvericilik aktları qəbul edilmiş və ya müvafiq dəyişikliklər edilmişdir, o cümlədən:

**2.1.** Azərbaycan Respublikası Prezidentinin 7 may 2018-ci il tarixli 58 nömrəli Sərəncamı ilə Kamran Sultan oğlu İmanov Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri təyin edilmişdir. Həmin Sərəncamın 2.1-ci bəndinin icrası ilə bağlı Azərbaycan Respublikası Prezidentinin aşağıda göstərilən sərəncamlarına dəyişikliklər edilmişdir:

- “Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-cı il 1 iyun tarixli 834 nömrəli Sərəncamı;
- “İxrac Nəzarəti üzrə Komissiyanın və idarələrarası ekspertlər qrupunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 1839 nömrəli Sərəncamı;
- “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası üzrə Milli Fəaliyyət Qrupunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 may tarixli 2918 nömrəli Sərəncamı.

**2.2.** “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanı qəbul edilmişdir. Göstərilən Fərmana əsasən:

- “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi” təsdiq edilmiş;
- Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi və ləğv edilmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası Agentliyin tabeliyinə verilmiş;
- Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin yaradılması barədə Nazirlər Kabinetinə tapşırıq verilmiş;
- Agentliyin və tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi və Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin nizamnamə fondlarının məbləği və Agentliyin işçilərinin say həddi müəyyən edilmişdir.

**2.3.** Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli 5 nömrəli Sərəncamına uyğunlaşdırma çərçivəsində adları aşağıda göstərilən Azərbaycan

Respublikasının qanunlarına və həmin qanunların tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına müvafiq dəyişikliklər edilmişdir:

- “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 4 may 2018-ci il tarixli 1134-VQD nömrəli Qanunu;
- “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1134-VQD nömrəli Qanununun tətbiqi və “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli 121 nömrəli Fərmanı;
- “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 4 may 2018-ci il tarixli 1133-VQD nömrəli Qanunu;
- “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1133-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 19 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli 120 nömrəli Fərmanı;
- “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 19 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 18 oktyabr 2018-ci il tarixli 308 nömrəli Fərmanı;
- “İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 4 may 2018-ci il tarixli 1135-VQD nömrəli Qanunu;
- “İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1135-VQD nömrəli Qanununun tətbiqi və “İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 16 noyabr tarixli 814 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli 122 nömrəli Fərmanı;
- “Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 4 may 2018-ci il tarixli 1137-VQD nömrəli Qanunu;
- “Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1137-VQD nömrəli Qanununun tətbiqi və “Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli 124 nömrəli Fərmanı;

• “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 4 may 2018-ci il tarixli 1139-VQD nömrəli Qanunu;

• “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1139-VQD nömrəli Qanununun tətbiqi və “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 668 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli 126 nömrəli Fərmanı;

• “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 4 may 2018-ci il tarixli 1136-VQD nömrəli Qanunu;

• “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1136-VQD nömrəli Qanununun tətbiqi və “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 162 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli 123 nömrəli Fərmanı;

• “Memarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 4 may 2018-ci il tarixli 1138-VQD nömrəli Qanunu;

• “Memarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1138-VQD nömrəli Qanununun tətbiqi və “Memarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 721 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2018-ci il tarixli 125 nömrəli Fərmanı.

**- Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli 5 nömrəli Sərəncamına uyğunlaşdırma çərçivəsində adları aşağıda göstərilən Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına dəyişikliklər edilməsi barədə təkliflər hazırlanaraq müvafiq qaydada təqdim edilmişdir:**

• “Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı;

• “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı;

• “Sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatının “bir pəncərə” prinsipinə uyğun təşkili ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 fevral tarixli 713 nömrəli Fərmanı;

• “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı”nın

təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamı;

• Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı”;

• Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 3722 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”;

• “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1005-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 aprel tarixli 1913 nömrəli Fərmanı;

• “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1006-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 aprel tarixli 1914 nömrəli Fərmanı.

- Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli 5 nömrəli Sərəncamına uyğunlaşdırma çərçivəsində adları aşağıda göstərilən Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları qəbul edilmişdir:

• “İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 mart tarixli 36 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 sentyabr 2018-ci il tarixli 404 nömrəli Qərarı;

• “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 19 avqust tarixli 156 nömrəli qərarı ilə təsdiq edilmiş “Məlumat toplularının rəsmi qeydiyyata alınması və rəsmi qeydiyyatdan keçirilmiş məlumat toplusuna hüquqların tam və ya qismən verilməsi haqqında müqavilənin qeydiyyatdan keçirilməsi Qaydaları”nda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 sentyabr 2018-ci il tarixli 405 nömrəli Qərarı;

• “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası”nın təsdiq edilməsi barədə” 2015-ci il 14 iyul tarixli 266 nömrəli qərarında və “Azərbaycan Respublikasında milli mədəni irsə, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə aid mədəni sərvətlərin üzünün köçürülməsi, çoxaldılması, onların əsasında suvenirlərin, çap məhsullarının istehsalı Qaydası”nın təsdiq edilməsi barədə” 2016-cı il 23 sentyabr tarixli 368 nömrəli qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 avqust 2018-ci il tarixli 357 nömrəli Qərarı;

• “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1134-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 avqust 2018-ci il tarixli 358 nömrəli Qərarı;

• “Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan folkloru nümunələrindən kommersiya məqsədi ilə istifadəsinə icazə verilməsi Qaydalarının və istifadəyə görə haqqın məbləğinin təsdiq

edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 20 oktyabr tarixli 172 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 avqust 2018-ci il tarixli 368 nömrəli Qərarı;

• "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1139-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 sentyabr 2018-ci il tarixli 372 nömrəli Qərarı.

**- Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanının icrası ilə bağlı adları aşağıda göstərilən Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları qəbul edilmişdir:**

• "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin strukturu"nun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 avqust 2018-ci il tarixli 349 nömrəli Qərarı;

• "Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 sentyabr 2018-ci il tarixli 379 nömrəli Qərarı;

• "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 oktyabr 2018-ci il tarixli 443 nömrəli Qərarı;

• "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 oktyabr 2018-ci il tarixli 444 nömrəli Qərarı.

**2.4.** Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanının icrası ilə bağlı adları aşağıda göstərilən Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları qəbul olunmuşdur:

• "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 24 noyabr tarixli 191 nömrəli, "Elmi fəaliyyətin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 11 oktyabr tarixli 416 nömrəli qərarlarında dəyişikliklər edilməsi və "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" 2017-ci il 10 noyabr tarixli 482 nömrəli Qərarının ləğv edilməsi barədə" Nazirlər Kabinetinin 18 dekabr 2018-ci il tarixli 537 nömrəli Qərarı;

• "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 22 may tarixli 80 nömrəli, "Əlaqəli hüquqların obyektlərinin qeydiyyatı haqqında Şəhadətnamənin nümunəsi"nin təsdiq edilməsi barədə" 2008-ci il 21 iyul tarixli 164 nömrəli, "Əmtəə nişanlarına dair müqavilələrin qeydiyyatı Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 15 sentyabr tarixli 139 nömrəli, "Azərbaycan Respublikasında əmtəə nişanlarının geniş tanınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 18 sentyabr tarixli 145 nömrəli, "Girov müqaviləsinin qeydiyyatı Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 18 sentyabr tarixli 146 nömrəli, "Patent hüququnun girov qoyulması barədə müqavilələrin qeydiyyata alınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 23 fevral tarixli 39 nömrəli, "İxtira

və sənaye nümunəsi patentinin qüvvədə olma müddətinin uzadılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 12 aprel tarixli 63 nömrəli, "Müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların qeydiyyatdan (akkreditasiyadan) keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2011-ci il 22 sentyabr tarixli 149 nömrəli, "Milli təhlükəsizliklə bağlı ixtira, faydalı model və sənaye nümunəsinə dair iddia sənədinə baxılma Qaydaları"nın təsdiq edilməsi haqqında" 2011-ci il 10 noyabr tarixli 183 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə" Nazirlər Kabinetinin 18 dekabr 2018-ci il tarixli 538 nömrəli Qərarı;

• "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əmtəə nişanı haqqında şəhadətnamə və coğrafi göstərici haqqında Şəhadətnamə formalarının müəyyən edilməsi barədə" 1999-cu il 5 mart tarixli 36 nömrəli, "Əmtəə nişanlarının Dövlət reyestrinin aparılma Qaydasının və coğrafi göstəricilərin Dövlət reyestrinin aparılma Qaydasının təsdiq edilməsi haqqında" 1999-cu il 30 avqust tarixli 143 nömrəli, "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydalarının təsdiq edilməsi haqqında" 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli, "Patent müvəkkilləri haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" 2000-ci il 15 fevral tarixli 21 nömrəli, "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Apellyasiya şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 155 nömrəli, "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısının təsdiq edilməsi haqqında" 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli, "Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli, "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın təsdiq edilməsi haqqında" 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli, "Ədəbiyyat və incəsənət əsərlərinin sifariş əsasında yaradılmasına, onların ilk kütləvi ifa və ya nümayiş hüququnun alınmasına görə müəllif qonorarının, yubiley, dövlət tədbirləri və xüsusi təyinatlı konsert proqramları üçün yaradıcı heyət və ifaçılara ödənilən haqqın minimum miqdarının və verilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2006-cı il 16 fevral tarixli 52 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə" Nazirlər Kabinetinin 18 dekabr 2018-ci il tarixli 539 nömrəli Qərarı.

**Bunlarla yanaşı, cənab Prezidentin struktur islahatları ilə bağlı fərman və sərəncamlardan irəli vəzifə və tapşırıqların icrası çərçivəsində:**

Agentliyin İdarə Heyətinin sədri tərəfindən Agentliyin ştat cədvəli təsdiq edilmiş, fəaliyyəti dayandırılmış Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin işçilərinin və fəaliyyəti dayandırılmış Patent və Əmtəə Nişanları Mərkəzinin işçilərinin bir qismi Agentlik üzrə təsdiq edilmiş ştat cədvəlinə uyğun olaraq vəzifələrə keçirilmiş, yeni işçilər işə qəbul edilmiş və Agentliyin fəaliyyəti təmin edilmişdir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanının 5.1-ci bəndinə uyğun olaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 31 iyul 2018-ci il tarixində dövlət qeydiyyatına alınmışdır.

Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 oktyabr 2018-ci il tarixli 443 nömrəli Qərarının 6-cı bəndinə uyğun olaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 17 oktyabr 2018-ci il tarixində dövlət qeydiyyatına alınmışdır.

Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 oktyabr 2018-ci il tarixli 444 nömrəli Qərarının 7-ci bəndinə uyğun olaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 17 oktyabr 2018-ci il tarixində dövlət qeydiyyatına alınmışdır.

Bununla yanaşı, Agentlik tərəfindən tabeliyində olan qurumların - Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin və Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin işçilərinin say hədləri və ştat cədvəlləri təsdiq edilmişdir.

Fəaliyyəti dayandırılmış Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin işçiləri Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə, fəaliyyəti dayandırılmış Patent və Əmtəə Nişanları Mərkəzinin işçiləri isə təsdiq edilmiş ştat cədvəlinə uyğun olaraq, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinə işə qəbul edilmişlər.

Agentliyin tabeliyinə verilən ləğv edilmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının Əsasnaməsi və ştat cədvəli hazırlanmışdır.

Bununla da Agentliyin tabeliyində olan qurumların - Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin və Respublika Elmi-Texniki Kitabxanasının strukturu formalaşdırılmış və onların fəaliyyətləri təmin edilmişdir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanunlarına edilmiş dəyişikliklərə (2018-ci il 23 fevral tarixli 1005-VQD nömrəli və 1006-VQD nömrəli Qanunlar) əsasən, ixtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının, coğrafi göstəricinin qeydə alınması, müvafiq mühafizə sənədlərinin verilməsi və onlarla bağlı dövlət adından bir sıra hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumları haqlara keçirilmiş və dövlət rüsumunun miqdarları 23 fevral 2018-ci il 1009-VQD nömrəli Qanunla "Dövlət rüsumu haqqında" Qanundan çıxarılmışdır.

Agentlik fəaliyyətə başladıqdan sonra apardığı təhlil nəticəsində məlum olmuşdur ki, dövlət rüsumundan haqlara keçirilmiş qiymətlər tənzimlənməmiş qalmışdır. Agentlik tərəfindən yerli və beynəlxalq təcrübə nəzərə alınmaqla araşdırmalar aparılmış, dövlətin maraqları baxımından qanunvericilikdə olan uyğunsuzluqların aradan qaldırılması məqsədi ilə müvafiq təkliflər hazırlanmışdır.

Bununla yanaşı, Agentliyin apardığı təhlillər nəticəsində müəyyən edilmişdir ki, "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" qanunların müvafiq maddələrində haqlarla əvəz edilən dövlət rüsumları içərisində "Dövlət rüsumu haqqında" Qanunun 1-ci maddəsinin və 2.0.6-cı yarımbəndinin müddəasının tələblərinə uyğun olmayaraq, ixtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının, coğrafi göstəricinin (bundan sonra - sənaye mülkiyyəti obyektləri) qeydə alınması, müvafiq mühafizə sənədlərinin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlər ilə bağlı ödənilməli olan dövlət rüsumları da haqla əvəz edilmiş və həmin dövlət rüsumlarının məbləğləri də Qanunun 18-ci maddəsindən çıxarılmışdır.

Agentlik dövlət adından bir sıra hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlər və hüquqi hərəkətlərə görə haqqa keçirilmiş ödənişlərin bir neçəsinin dövlət rüsumuna qaytarılması təklifi ilə çıxış etmiş və "Patent haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" və "Dövlət rüsumu haqqında" qanunlara dəyişikliklər

edilməsi barədə qanun layihələri hazırlayaraq Ədliyyə və Maliyyə nazirlikləri ilə razılaşdırmış və Nazirlər Kabinetinə göndərmişdir.

Agentlik tərəfindən təklif edilən xidmətlər istisna olmaqla, haqqa keçirilmiş, lakin tənzimlənməmiş xidmətlərə görə haqların ödənilməsini (əvvəlki dövlət rüsumunun miqdarı saxlanılmaqla) nəzərdə tutan "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri"nin təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin qərar layihəsi hazırlanaraq Nazirlər Kabinetinə göndərilmişdir.

Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı Nazirlər Kabinetinin "Əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatlar tərəfindən Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək illik haqqın məbləği barədə" 7 fevral 2018-ci il tarixli 37 nömrəli Qərarı qəbul olunmuşdur.

"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına prioritet sahələrdən biri kimi daxil edilmiş əqli mülkiyyət sahəsi üzrə tədbirlərin icrası çərçivəsində Agentlik tərəfindən hazırlanmış 3 qanun, 1 strategiya, 1 konsepsiya, 2 dövlət proqramı, 1 tədbirlər planı və Nazirlər Kabinetinin 8 qərar layihəsinin bir hissəsi aidiyyəti dövlət qurumları və qeyri-hökumət təşkilatlarının təklifləri nəzərə alınmaqla təkmilləşdirilərək müvafiq qaydada təqdim olunmuş, əqli mülkiyyət sahəsində struktur islahatları ilə bağlı hüquqi maarifləndirmə xarakterli müxtəlif formatlı tədbirlər, o cümlədən seminar və simpoziumlar keçirilmişdir.

"Əsərlərin dövlət varidatı elan edilməsi Qaydaları"nın və "Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin siyahısı"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin qərar layihəsi təkmilləşdirilərək "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun müddəalarına uyğun olaraq Nazirlər Kabinetinə göndərilmişdir.

2018-ci il iyunun 5-də Bakı şəhərində "Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında Anlaşma Memorandumu" imzalanmışdır. Anlaşma Memorandumu Azərbaycan Respublikasi Prezidentinin 30 iyul 2018-ci il tarixli 221 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Ölkə başçısı tərəfindən imzalanmış 12 iyun 2018-ci il tarixli 1178-VQ nömrəli Azərbaycan Respublikasıniın Qanunu ilə Azərbaycan Respublikası 2013-cü il 27 iyun tarixli "Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi"nə müvafiq bəyanatlarla qoşulmuşdur. Həmin Müqavilə Azərbaycan Respublikasına münasibətdə 24 dekabr 2018-ci il tarixdən qüvvəyə minmişdir.

2018-ci ildə Müəllif Hüquqları Agentliyinin bir əməkdaşı dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

## 3. Əqli mülkiyyət siyasəti və təhlil.

Əqli Mülkiyyət Agentliyi fəaliyyətinin ilkin mərhələsində sənaye mülkiyyəti sahəsindəki mövcud vəziyyətin öyrənilməsi məqsədi ilə təhlil və araşdırmalar aparılmış və bu sahədə bir sıra problemlərin, o cümlədən sənaye mülkiyyəti sahəsində fəaliyyət göstərən müvafiq strukturun fəaliyyətində çatışmazlıqların və problemlərin olduğu aşkara çıxarılmışdır.

Müəyyən edilmişdir ki, ixtiralar, faydalı modellər, sənaye nümunələri və əmtəə nişanlarının ekspertizasını həyata keçirən, sənaye mülkiyyəti obyektlərinə əqli

mülkiyyət hüququnu müəyyən edən strukturun - Patent və Əmtəə Nişanları Mərkəzinin (PM) bu sahədə innovasiyalara yönələn siyasəti formalaşmamışdır. Bunun da başlıca səbəbi bu qurumun son illər təsərrüfat subyektinə çevrilməsi və yalnız öz maraqları çərçivəsində fəaliyyət göstərməsi olmuşdur. Dövlət rüsumlarının xidməti haqlarla əvəzlənməsi, onların artırılması və müvafiq kateqoriyalı iddiaçılara (gənc ixtiraçılar, fərdi müəlliflər, tələbə startapları, KOS nümayəndələri və s.) güzəştlərin təmin olunmaması da ixtira fəaliyyətinə neqativ təsir göstərmişdir. Halbuki sənaye mülkiyyəti (patent və əmtəə nişanları) əqli mülkiyyətin tərkib hissəsi olaraq, özünə qulluq edən, abstrakt vasitə deyil. Əqli mülkiyyətin başlıca məqsədi investisiyaların cəlb edilməsində və innovasiyaların həyata keçirilməsindədir.

Digər tərəfdən, təklikdə göstərici qismində çıxış edən verilən patentlərin sayı (üstəlik PCT sistemi üzrə deyil, milli və Avrasiya səviyyəsində) təklikdə Patent qurumunun fəaliyyətinin səmərəliyini müəyyən edə bilməz. Səmərəlilik patentlərdən alınan faydalılıqla ölçülür. Həmçinin yalnız əmtəə nişanlarına verilən şəhadətnamələrin sayı (özü də fəaliyyəti dayandırılmış əmtəə nişanları haqqında məlumatsızlıq şəraitində) səmərəli fəaliyyətini ölçə bilməz. Bazarın rəqabətqabiliyyətliliyinə bu şəhadətnamələrin təsiri təhlil edilməlidir.

➢ Bunların əvəzinə, PM-nin fəaliyyətini qiymətləndirmək üçün qabaqcıl dünya praktikasına əsaslanan indekslər (göstəricilər) sistemi yaradılmalıdır və yaradılıb. Bunlar aşağıdakılardır:

- İxtira və patent fəallığı (aktivliyi) əmsalı;
- İxtira və patent özünütəmin etməsi əmsalı;
- İxtira və patent asılılığı əmsalı;
- İxtira və patent yayılması əmsalı;
- İxtira potensialının reallaşması əmsalı.

Bununla yanaşı, ÜƏMT 1 mln. $ ETTKİ xərclənən milli patent sifarişləri əmsalını və 1 mln. adambaşına düşən patent sifarişləri əmsalını istifadə edir.

Bu göstəricilərin hesablanması və monitorinqi Qlobal Rəqabətqabiliyyətlilik və Qlobal İnnovasiya İndekslərində ölkəmizin reytinqinə müsbət təsir göstərmək üçün əsas kimi çıxış edə bilər.

➢ Sadalanan və dünya təcrübəsində istifadə olunan göstəricilər nisbi xarakter daşıyır və onların formalaşmasında 4 mütləq göstərici istifadə edilir, o cümlədən:

- patentin alınmasına olan sifarişlərin sayı (yerli və xarici sifarişlər nəzərə alınmaqla);
- verilən patentlərin sayı (yerli və xarici sifarişlər nəzərə alınmaqla);
- ilin axırına qüvvədə olan patentlərin sayı;
- ƏM-in əmlak hüquqlarının sərəncamçılığına aid lisenziya sazişlərinin sayı.

➢ Mütləq göstəricilərin mahiyyəti ondan ibarətdir ki, onlar o qədər də PM fəaliyyətinin meyarları kimi çıxış etmirlər: bu göstəricilər bir tərəfdən tədqiqat, innovasiya sektorunun fəaliyyətini qiymətləndirir, digər tərəfdən isə istehsalatın inkişaf səviyyəsini və bazarın ehtiyaclarını nəzərə alır.

➢ PM isə bu 4 mütləq göstəriciyə öz təsirini aşağıdakı vasitələr hesabına həyata keçirə bilir:

- rəqəmli infrastrukturunun modernləşdirilməsi və sifarişçilərin PM ilə əlaqələrinin elektron şəkildə yaradılması, bir sözlə yeni rəqəmli servislərin təqdim etdirilməsi vasitəsilə, yaxud ilkin patent axtarışını daha qısa müddətdə keçirtmək üçün ödənişli xidmətin tətbiqi (bunlar PM bilavasitə göstəriciləri olan sifarişlərin baxılma müddətinin azaldılmasına və nəticədə aparılan ekspertizaların sayına təsir edir);
- patent analitikasının istifadəsi, yəni patent landşaftlarının və bençmarkinqin istifadəsi (bunlar ölkənin texnoloji profilini müəyyən edərək, hansı bazarlarda patentin

alınmasını, hansılarda lisenziyanın əlverişliliyini, hansı məhsulun buraxılması, rəqiblər və partnyorlar haqqında məlumatı aydınlaşdırır və s.). Nəticədə mütləq göstəricilərə müsbət təsir göstərilir;

- patent rüsumlarının tənzimlənməsi və güzəştli sifarişçi kateqoriyaların genişlənməsi;
- innovasiya sektorunun stimullaşdırılması, əqli mülkiyyətin istifadəsi ilə bağlı mənfəət vergisinin azaldılması, müəlliflərin stimullaşdırılması, kommersiyalaşma üçün həvəsləndirici tədbirlərin keçirilməsi (son tədbirlər PM-nin daxili göstəriciləri olan patent rüsumlarının həcmi və dövlət büdcəsinə yönəldilən vəsaitlərə təsir edir).

Son vaxtlar Azərbaycanda aparılan tədqiqatlara əsasən mütləq 4 göstəricinin qiymətləri (illər üzrə) aşağıdakı cədvəldə öz əksini tapmışdır:

**İxtiralara patent sifarişlərinin, patentlərin verilməsinin və digər mütləq göstəricilərin dinamikası**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| 1. Sifarişlərin sayı (ümumi), o cümlədən: | 271 | 205 | 144 | 156 | 167 | 180 | 155 | 226 |
| yerli sifarişçilər (rezident), | 258 | 196 | 132 | 132 | 143 | 151 | 136 | 206 |
| xarici sifarişçilər (qeyri-rezident) | 13 | 9 | 12 | 24 | 24 | 29 | 19 | 20 |
| 2. Verilən patentlərin sayı, o cümlədən: | 126 | 118 | 111 | 78 | 97 | 88 | 131 | 67 |
| yerli (rezident), | 124 | 109 | 105 | 73 | 92 | 86 | 116 | 63 |
| xarici (qeyri-rezident) | 2 | 9 | 6 | 5 | 5 | 2 | 15 | 4 |
| 3. Qüvvədə olan patentlər | 496 | 451 | 289 | 248 | 288 | 203 | 345 | 236 |
| 4. Lisenziya sazişləri | 1 | - | 4 | - | 1 | - | - | 2 |

Cədvəldəki statistik göstəricilərin təhlilindən belə nəticə əldə olunur ki, demək olar bütün göstəricilər üzrə azalma müşahidə olunur. Təhlildən görmək olur ki, yerli ixtiraçılar Azərbaycanda patentləşməyə üstünlük verirlər, belə ki, Azərbaycan bazarının yeni texnologiyalara ehtiyacları xarici nümunələr vasitəsilə ödənilməklə qarşılaşır. Qüvvədə olan patentlərin sayının azalması isə (2010-cu ildə - 496, 2017-ci ildə - 236) ixtiraçıların patentlərin qüvvədə olmasına marağının olmamasına və mövcud patentlərə bazar tələbatının zəif olmasına dəlalət edir. Yerli sifarişçilərin beynəlxalq patent fəaliyyətinin zəif olması nəzərə çarpır (səbəblərin biri xarici patentin alınmasının və qüvvədə saxlanılmasına olan böyük xərclərdir).

2010-2017-ci illərdə cəmi 8 lisenziya sazişi mövcud olmuşdur (bunların 4-ü 2012-ci ildə), bu isə əqli mülkiyyət bazarının kifayət qədər zəif inkişafını göstərir. Üstəlik,10 ildən sonra patentlərin 50% müəlliflər saxlamaqda ehtiyac görmürlər (səbəblərin biri maliyyə alətlərinin zəif olmasıdır (əqli mülkiyyətin qiymətləndirilməsi, girov, sığorta müxanizmlərinin işləməməsi).

Spirmenin ranq korrelyasiyası (sifarişlər – patentin alınması) göstərir ki, 0,82 birbaşa müsbət korrelyasiya 1 il laq ilə (bir il sonra) mövcuddur. Pirson korrelyasiya əmsalı isə 1 il laqı təsdiqləyir (0,63). Bu isə o deməkdir ki, patentlərin verilməsi sifariş veriləndən 1 il sonra baş tutur (dünya orta statistik müddətinə uyğundur).

Qeyd edildiyi kimi, ixtira aktivliyini və səmərəliyini, həmçinin əqli mülkiyyət potensialının ölkələrarası müqayisələrin korrektliyini təmin etmək məqsədilə bir neçə nisbi əmsallar istifadə olunur. Bunlar aşağıdakı mənaları daşıyırlar:

• ixtira aktivliyi əmsalı: 10 min əhali sayına düşən ixtiralara aid yerli sifarişçilər tərəfindən milli PM-nə verilən sifarişlərin sayı (bu göstərici milli tədqiqat əməyinin intensivliyini ölçür);

• özünü təmin etmə əmsalı: PM-ə verilən yerli sifarişçilər tərəfindən patent sifarişlərinin sayının ümumi patent sifarişlərinə nisbəti (bu göstərici yerli tədqiqat əməyinin müqayisəli miqyasını ölçür);

• texnoloji asılılıq əmsalı: PM-ə verilən xarici sifarişçilərin sifarişlərinin sayının yerli sifarişçilər tərəfindən verilən sifarişlərinin sayına nisbəti (bu göstərici özünütəmin etmə əmsalının əksidir).

• ixtira potensialının reallaşma əmsalı: verilən patentlərin və təqdim olunan sifarişlərin nisbəti.

Buna dair rəqəmlər aşağıdakı cədvəldə verilir:

**İxtira və patent fəaliyyətinin nisbi göstəricilərinin dinamikası**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| 1. İxtira aktivliyi əmsalı | 0,29 | 0,22 | 0,14 | 0,14 | 0,15 | 0,16 | 0,14 | 0,21 |
| 2. Özünütəmin etməsi əmsalı | 0,95 | 0,96 | 0,92 | 0,85 | 0,86 | 0,84 | 0,88 | 0,91 |
| 3. Texnoloji asılılığı əmsalı | 0,05 | 0,05 | 0,09 | 0,18 | 0,17 | 0,19 | 0,14 | 0,10 |
| 4. İxtira potensialının reallaşması əmsalı | 0,48 | 0,56 | 0,80 | 0,55 | 0,64 | 0,57 | 0,85 | 0,31 |
| 5. Bir sifarişə olan tədqiqatçıların sayı | 42,6 | 56,1 | 90,2 | 115,9 | 110,5 | 107,9 | 118,4 | 75,2 |
| 6. ETTKİ xərclənən 1 mln. $ olan milli patent sifarişlərinin sayı | 2,5 | 1,7 | 1,0 | 0,9 | 0,9 | 0,9 | 1,1 | 2,5 |

Təqdim olunan cədvəldəki ilk 4 göstəricidən belə nəticəyə gəlmək olur:

- İxtira aktivliyinin zəifləməsi müşahidə olunur və sonda həmin göstərici ilkin qiymətinə qayıdır (2010 – 0,29; 2011 – 0,22; 2014 – 0,14; sonra dəyişmir və 2017-ci ildə qayıdır: 0,21-ə).
- Özünütəmin etmə əmsalı 0,84-0,96 civarında dəyişərək, nisbətən sabitdir.
- Texnoloji asılılıq əmsalı 0,05 (2010-2011) 0,19-a qədər (2015) dəyişərək, 2017-ci ildə 0,10-a qədər azalır. Bu göstərici ümumiyyətlə artımı göstərir (bu göstəricinin aşağı qiyməti “texnoloji azadlığı” demək deyil, daha çox xarici sifarişçilər tərəfindən risklərin olması ilə bağlı (təkrarlama) patentləşmədən imtina etməyinin nümayişidir).
- İxtira potensialının reallaşması əmsalı ildən-ilə nəzərə çarpan dərəcədə dəyişərək, nəticədə 2017-ci ildə azalır (2010 – 0,48; 2016 – 0,85; 2017 – 0,31). Səbəbi: patent aktivliyinin zəif olmasıdır.

Son iki göstəriciyə gəldikdə (bir patent sifarişinə olan tədqiqatçıların sayı və ETTK işlərinə xərclənən 1 mln. $ olan milli patent sifaişlərinin sayı) isə qeyd edilməlidir ki, həmin göstəricilər ölkələrarası müqayisələrdə böyük əhəmiyyət və mahiyyətcə aşağıdakı mənanı daşıyır:

➢ Bir patent sifarişinə olan tədqiqatçıların sayı (1 illik laqla hesablanır), yəni ötən ildəki tədqiqatçıların sayının növbəti ildəki patent sifarişlərinin sayına olan nisbətidir;

➢ ETTK işlərinə xərclənən 1 mln. $ olan milli patent sifaişlərinin sayı (1 illik laqla hesablanır) və mövcud ilin patent sifarişlərinin sayının ötən ildə xərclənən ETTK işlərinə hər 1 mln. $ olan nisbətidir.

Aşağıdakı sxemlər illər üzrə ölkədə ixtira və patent aktivliyini, həmçinin ixtira potensialının reallaşmasını təsvir edir:

**İxtira potensialının reallaşmasının dinamikası və loqarifmik trendinin xətti (Azərbaycan, 2010-2017-ci il)**




**İxtira və patent aktivliyi əmsalları (Azərbaycan, 2010-2017-ci il)**




**İxtira və patent aktivliyi əmsalları və loqarifmik trendlər xətləri (Azərbaycan, 2010-2017-ci il)**



## 4. Əqli mülkiyyətin kommersiyalaşması və texnologiyaların transferi

Azərbaycan Respublikası innovativ inkişaf yoluna qədəm qoymuşdur. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə dərin iqtisadi islahatlar həyata keçirilir. İqtisadi həyatda müşayiət olunan tendensiyalar və nailiyyətlər, innovativ inkişafdakı uğurlar texnologiyaların kommersiyalaşdırılması üzrə şəraitin yaradılması və əqli mülkiyyətin qorunması və idarə edilməsi vəziyyəti ilə sıx bağlıdır. Bununla əlaqədar innovativ inkişafa və texnoloji nəticələrin tətbiq olunması üzrə imkanların yaradılmasına məsul olan strukturlar bütövlükdə və o cümlədən, əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr dövlət başçısı tərəfindən müəyyən edilmiş siyasətdən irəli gələn tendensiya və tələblərə uyğun olmalı, həyata keçirilən islahatlara dəstəyi təmin etməlidir.

Azərbaycan Respublikası Prezidentinin innovativ inkişaf sahəsində koordinasiyasının təmin olunması barədə imzaladığı Sərəncam və Əqli Mülkyyət Agentliyinin yaradılması üzrə həyata keçirilən institusional islahatlar müasir iqtisadi inkişafda innovasiyaların və əqli mülkiyyətin əhəmiyyətini əyani şəkildə göstərir. Deməli, ölkənin innovativ iqtisadi siyasəti və ondan irəli gələn iqtisadi imperativlər texnoloji yeniliklərin artan templə bazara çıxarılmasının əsas bazisidir və innovativ nəticələri müşayiət edən əqli mülkiyyətin böyük əhəmiyyətini göstərir.

Bununla yanaşı, təhlil göstərir ki, müasir tələblərə adekvat cavab verməyə qadir olan əqli mülkiyyət sistemi, eləcə də yeniliklərin kommersiyalaşdırılma mexanizmləri bir sıra amillər nəzərə alınmaqla formalaşdırılmalıdır:

Birincisi, ali təhsil və elm sistemində radikal transformasiya nəticəsində 3.0 (təhsil, tədqiqatlar və biliklərin kommersiyalaşması) universitetlərin yaranması, burada texnologiyaların kommersiyalaşması və transferinin ön plana çəkilməsi;

İkincisi, KOS-ın iqtisadi rolunun və innovasiya imkanlarının artırılması, burada əqli mülkiyyət siyasətinin dəstəklənməsi, texnoloji innovasiyaların stimullaşdırılması;

Üçüncüsü, əqli mülkiyyətin yeni fəaliyyət konteksti ilə bağlı onun dəyişmiş rolunun nəzərə alınması, sərvətlərin yaranma mərkəzinin maddi aktivlərdən qeyri-maddi aktivlərə, intellektual kapitala yönəlməsi və investisiya axınlarının əqli mülkiyyətə istiqamətlənməsi;

Nəhayət, dördüncüsü, ölkədəki infrastruktur hesabına formalaşmış və elmi tədqiqatların nəticələrinin potensialından istifadəni gözləyən əhəmiyyətli ehtiyatlardır.

Əqli mülkiyyət sahəsində nüfuzlu mütəxəssislərin fikrinə görə, "gələcəkdə əqli mülkiyyətin beynəlxalq arxitekturası və formasının texnologiyalar tərəfindən getdikcə daha çox diqtə ediləcəyi və onu idarə etməsi qaçılmazdır". Bununla texnologiyaların əqli mülkiyyətin mövcud landşaftına kardinal təsiri göstərilir və əqli mülkiyyət öz növbəsində buna qarşı çıxmamalı, əksinə, ona uyğunlaşmalıdır.

İnnovasiyalı inkişafın başında innovasiyaların, yeniliyin iqtisadi gəlir əldə etmək məqsədi ilə praktiki tətbiqi durur. Beləliklə, müasir dövrdə innovasiyalı inkişafın prioriteti texnologiyaların kommersiyalaşmasındadır, yəni innovasiyaların bazara çıxarılmasında, yenilikçilik məhsullarının istehlakçıya çatdırılmasındadır. Burada "elmi-tədqiqat işlərinin nəticələrindən gəlir gətirən hər hansı fəaliyyət, o cümlədən əqli mülkiyyət hüquqlarının istifadəsindən yaranan royalti, texnologiyalara əsaslanan yeni kompaniyaların ("startaplar, spinautlar" və s.) yaradılması, fərdi müştərilərlə bağlanan tədqiqat kontraktları" və s. nəzərdə tutulur. Beləliklə, innovativ inkişaf əqli mülkiyyət, texnologiyaların kommersiyalaşdırılması və innovasiyaların dəstəklənməsi məsələlərinin ardıcıl, birgə və sistemli həllini tələb edir.

Dövlət başçısının ölkədə informasiya cəmiyyətinin inkişafı üzrə Tədbirlər planına münasibətdə verdiyi Sərəncama uyğun olaraq Əqli Müıliyyət Agentliyi qarşısında

Texnologiyaların Kommersiyalaşması və Transferi Mərkəzinin yaradılması vəzifələri durur.

Beynəlxalq təcrübə göstərir ki, belə mərkəzlər texnologiyaların kommersiyalaşdırılmasının surətləndirilməsi üçün yaradılır və elmi tədqiqat nəticələrinin kommersiyalaşmasında və onların bazara çıxarılmasında effektiv alət kimi çıxış edirlər.

Bununla əlaqədar, Əqli Mülkiyyət Agentliyi tərəfindən texnologiyaların transferi və kommersiyalaşmaya dəstək verilməsi sahəsində işlərin koordinasiya edilməsi məqsədi ilə ilkin mərhələdə Agentliyin struktur bölməsi kimi "Texnologiya Transferi və Kommersiyalaşmaya dəstək" şöbəsi yaradılmış və aşağıdakı istiqamətlərdə iş aparılmışdır:

- Elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılması, ixtiraçılıq fəaliyyətinin keyfiyyətinin artması və tətbiqi xarakter daşıması üçün texnologiyaların transfer və innovasiyalara dəstək mərkəzlərinin, əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması infrastrukturunun (kommersiyalaşdırılma mərkəzlərinin və təsisatlarının) yaradılması ilə bağlı təkliflər vermək və formalaşdırılmasında iştirak etmək;

- Ali təhsil və elmi tədqiqat müəssisələrində əqli mülkiyyət siyasətinin formalaşmasına dəstək məqsədilə həmin müəssisələrin əqli mülkiyyət bölmələrinə nəşrlər təqdim etməklə və təlimlər vasitəsilə yardım göstərmək;

- Ali təhsil və elmi tədqiqat müəssisələrin əqli fəaliyyət nəticələrinin və innovasiya texnologiyalarının kommersiyalaşdırılmasına xidmət edən startap layihələrinin yaradılmasının stimullaşdırılması ilə bağlı işlər görmək.

**Bununla bağlı, texnologiyaların kommersiyalaşması və transferi mərkəzlərin yaradılmasına dair beynəlxalq təcrübə təhlil edilmiş,** bir sıra ölkələrin (Amerika, İsrail, Çin, Çili, Türkiyə, Fillipin, Xorvatiya, Polşa, Estoniya, Rusiya, Kazaxstan, Belarus, Moldova və sair) təcrübəsi əsasında Texnologiyaların Kommersiyalaşması və Transferi Mərkəzlərinin (TKTM) bir neçə növ struktur quruluşları müəyyən edilmişdir, o cümlədən:

a) Təşkilatların nəzdində (universitetlər və biznes korporasiyalar), daxili struktur bölməsi kimi və ya müstəqil qurum kimi yaradılan mərkəz. Belə tip mərkəzlər inkişaf etmiş və inkişafda olan ölkələrdə geniş yayılmışdır və təşkilatların elmi və biznes istiqamətlərinə yönəldilərək onların tələbatlarına qulluq edirlər.

b) TKTM-lərın tematik, və ya universal (ölkə səviyyəsində, geniş regionları əhatə edən) şəbəkələri. Geniş tematik şəbəkə kimi, Amerikada NASA tərəfindən idarə olunan şəbəkəni qeyd etmək olar, şəbəkə 15 texnoloji istiqamətlər üzrə fəaliyyət göstərir: kosmik, emal, kommunikasiya, mexanika, elektrik/elektronik, ətraf mühit, materiallar, tibb, biotexnologiya və sair. Geniş beynəlxalq şəbəkənin misalı kimi, "Steinbeis Foundation" şəbəkəsini göstərmək olar. Bu şəbəkə yüzlərlə ekspertlərin təcrübəsini özündə cəmləşdirir. Şəbəkənin nəzdində "Steinbeis Transfer Magazine" jurnalı nəşr edilir.

c) Sırf tematik mərkəzlər. Müasir elmi istiqamətlərə uyğun olaraq (nanotexnologiyalar, biotexnologiyalar, alternativ enerji mənbələri və sair) yaradılır.

ç) Regional mərkəzlər. Belə mərkəzlər Rusiya Federasiyasında, Özbəkistanda, Qazaxıstanda və bir sıra ölkələrdə fəaliyyət göstərirlər. Belə növ TKTM yaratdıqda, sözügedən ərazidə sənayelərin və elmi sektorun, müvafiq regional və milli prioritetlərin, strategiyaların və proqramların inkişaf mərhələsi müəyyənləşdirilməli, və innovasiya fəaliyyətləri iştirakçılarının ehtiyacları nəzərə alınmalıdır.

d) İki səviyyəli strukturlar, baş mərkəz koordinasiya funksiyalarını icra edir. Misal kimi, rttn.ru - 70-dən artıq Mərkəzdən ibarət Rusiya TT dairəsini və ictt.by – 29 filialı və 5 regional mərkəzləri birləşdirən Belarus TT dairəsini göstərmək olar.

Azərbaycanda innovasiya infrastrukturunun yeni elementlərini inkişaf etdirmək və bununla da ölkədə innovasiyalı iqtisadiyyat formalaşdırmasına əhəmiyyətli təkan vermək məqsədilə yaradılması üçün iki səviyyəli struktur daha məqsədəuyğun hesab olunur:

- Texnologiyaların Kommersiyalaşması və Transferi Mərkəzi (Bakı şəhərində);
- Regional Ofislər.

Baş ofis Əqli Mülkiyyət Aqentliyin nəzdində Bakı şəhərində təsis olunur, regional ofislərin yeni yaradılan KOB evlərində və yaxud inkişaf mərkəzlərində yerləşdirilməsi, gələcəkdə isə regional klasterlərə qoşulması nəzərdə tutulur. Regional ofislər eyni zamanda ali təhsil və elmi tədqiqat müəssisələrində texnologiyaların transferi və innovasiyalara dəstək mərkəzlərinin işlərini koordinasiya edir.

Universitetlədə olan kadr və digər resursların birləşdirilməsinə nail olmaq məqsədilə Polşanın təcrübəsi əsasında universitetlərin nəzdində fəaliyyət göstərən TT ofislərin assosiasiyasının yaradılması da hazırlanan təkliflər arasındadır. Hazırda Agentlikdə bu istiqamətlərdə iş davam etdirilir.

**Əqli fəaliyyət nəticələrinin və innovasiya texnologiyalarının kommersiyalaşdırılmasına dəstək modellərinin yaradılması** istiqamətdə bir sıra mövcud xarici modellər təhlil edilmiş və aşağıdakılar müəyyən eilmişdir.

Amerika Modeli – milli labaratoriyalar və universitetlərin nəzdində yaradılan Texnologiyaların Transferi Mərkəzinə (bundan sonra TTM) öz daxili resursları hesabına Mərkəz kommersiyalaşdırma fəaliyyəti nəticəsində gəlir əldə edənədək (5 ildən 10 illədək) maliyyə yardımı edirlər. Digər tərəfdən, Amerika Birləşmiş Ştatlarında biri milli (ölkə səviyyəsində) və altı regional mərkəzlərdən ibarət olan və Milli Kosmik Tədqiqat Agentliyi (NASA) tərəfindən idarə olunan Milli Texnologiya Transfer Şəbəkəsi (MTTŞ) fəaliyyət göstərir. Belə mərkəzlərin birbaşa dövlət maliyyələşdirilməsi yalnız MTTŞ-nin inkişafının ilkin mərhələsində (5-10 il) həyata keçirilir.

Böyük Britaniya modeli. Universitetləri və müəssisələri birləşdirən xüsusi zonalar yaradılıb (Universitet Müəssisə Zonaları). Bu layihə çərçivəsində müəyyən coğrafi ərazilərdə universitetlər və yerli biznes tərəfdaşlıq çərçivəsində birgə işləyəcəklər. Belə zonalar dövlət və universitetlər tərəfindən birgə maliyyələşdiriləcəkdir (müqavilə əsasında, dövlət tərəfindən hər bir funt sterlinqə universitetlər 2 funt sterlinq sərmayə qoymalıdır). 4 pilot layihə Bradford, Bristol, Liverpul və Nottingham şəhərlərində icra olunur.

Alman Modeli – TTM-ə federal hökümətdən ayrılan subsidiyalar və TTM-in araşdırma (research) fəaliyyətindən, həmçinin göstərdiyi xidmətlərdən – tədris seminarlarınının, ticarət sərgilərinin təşkili, maliyyə və digər məsələlərlə bağlı konsaltinq xidməti və s.) əldə etdiyi gəlirlər onun büdcəsini təşkil edir.

Yapon Modeli – TTM-in fəaliyyət göstərməsi üçün tələb olunan vəsaitlərin 2/3 hissəsi TTM yaradılan kimi dövlət büdcəsindən ayrılır (300.000 $ bir illik x 5 il).

CAR Modeli (Cənubi Afrika) – dövlət büdcəsindən ayırmalar, akademik institutlardan ayırmalar, AB və ABŞ-dan ayrılan qrantlar.

Bir qayda olaraq, texnologiyaların transferi və kommersiyalaşma mərkəzlərinin əsas məqsədi mənfəət əldə etmək deyil. Mərkəzlərin böyük bir hissəsinin qazancları aşağı və ya sıfır dərəcəsindədir. Eyni zamanda ərazilərin innovativ inkişafında TTM-nin rolu və töhfəsi nəzərə alınmaqla, onların maliyyə vəsaitləri ilə dəstəklənməsi regionların inkişafı ilə bağlı mövcud dövlət proqramları tərəfindən təmin edilməlidir.

**Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində Əqli Mülkiyyət Agentliyinin tabeliyində yaradılması planlaşdırılan Texnologiyaların**

**Kommersiyalaşması və Transferi Mərkəzinin (TKTM) Əsasnaməsi hazırlanmış və onun əsas fəaliyyət istiqamətləri kimi aşağıdakılar müəyyən olunmuşdur:**

- Ölkənin innovasiya infrastrukturunun inkişaf etdirilməsi (yeni texnologiya transfer mərkəzlərinin yaradılmasına, onların şəbəkələşməsinə dəstəyin göstərilməsi);
- Əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılmasının özəl-dövlət tərəfdaşlığının (partnyorluğu) qurulması və maliyyələşmə mexanizmlərinin tətbiq edilməsi; Əqli mülkiyyət obyektlərinin mənimsənilməsi və kommersiyalaşdırılması məqsədi ilə onlara dair hüquqların əldə edilməsi və ötürülməsinə dəstək göstərilməsi;
- Azərbaycanda fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrində aparılan elmi-tədqiqat işlərinin nəticələrinin və innovasiya fəaliyyətinin izlənməsi və məlumatların toplanması;
- Ölkədə hazırlanan elmi-tədqiqat və texnoloji işləmələrinin nümayiş etdirmək üçün yerli və beynəlxalq sərgilərdə, forumlarda iştirak edilməsi;
- Kiçik innovasiya müəssisələrinin (startapların) yaradılmasında və inkişafına dəstək verilməsi;
- İnnovasiya faəliyyətinin maliyyələşdirilməsi üçün yeni maliyyə mənbələrinin axtarışı;
- İnnovasiya texnologiyaların transferi, mənimsənilməsi, kommersiyalaşdırılması sahəsində beynəlxalq əməkdaşlığın qurulmasına dəstək göstərilməsi;
- İxtiraçı ilə investorlar arasında münasibətlərin yaradılması, bu istiqamətdə marketinq tədqiqatlarının aparılması.

Təhlil göstərir ki, TKTM dövlət və özəl təşkilatlarda yerinə yetirilən elmi-tədqiqatların nəticələrindən gəlir əldə etməyə, həmçinin həmin nəticələrin kommersiya və qeyri-kommersiya istifadəsinə yönləndirilmiş təşkilatdır. Əldə olunan gəlir aşağıdakıların hesabına alına bilər:

- Hər hansı kommersiya sazişindən, o cümlədən əqli mülkiyyət hüquqlarının istifadəsi (güzəşt edilməsi, lisenziya müqavilələri);
- Texnologiyalara əsaslanan yeni kompaniyaların yaradılması;
- Tədqiqat kontraktları, həmçinin;
- Müvafiq müqavilə şərtlərinə əsasən texnologiyaların transferi nəticəsində əldə olunan gəlirdən alınan pay hesabına;

Beləliklə, TKTM müştərilərə texnologiya və layihələrin bazar məqsədləri üçün irəli sürülməsi xidmətlərini göstərən təşkilati qurumdur.

TKTM-in ümumi təşkilati-maliyyə strukturu maliyyə mənbələrindən asılı olaraq dəyişə bilər:

a) dövlət təşkilatı, yaxud tabeliyində olduğu orqan tərəfindən dövlət vəsaitləri hesabına büdcədən maliyyələşdirilən, həmçinin bilavasitə və ya birbaşa tabeliyində olduğu orqan tərəfindən birgə maliyyələşməsi olan qarışıq forma;

b) Müəyyən tapşırıqların yerinə yetirilməsi üçün qismən büdcədən maliyyələşən və ya yuxarı orqan tərəfindən qismən maliyyəsi təmin edilən təşkilat, o şərtlə ki, özünün layihə menecmenti hesabına sonradan maliyyə stabilliyi və müstəqilliyi təmin olunacaq;

c) Təsisçilər qrupu – müştərilər tərəfindən yaradılan və maliyyələşdirilən və öz təsisçilərinin texnologiyalarının bazara çıxaran təşkilat;

d) Özəl biznes strukturu, o cümlədən hüquqi şəxs tərəfindən təsis edilən və hər hansı kommersiya sazişi, o cümlədən texnologiyaların transferi, tədqiqat kontraktları, əqli mülkiyyət hüquqlarının istifadəsinə görə alınan royalti, startapların və ya birgə müəssisələrin yaradılması vasitəsilə dəyərlər yaradan kommersiya strukturu;

TKTM-i layihələndirərkən qarşıdakı məsələləri şərti olaraq 4 qrupa bölmək olar :

- TKTM-in əsas missiyası (yəni TKTM kimin üçün işləyir, hansı problemləri həll etmək niyyətindədir, onları hansı formada həll edəcək?);
- əhatə dairəsi, o cümlədən müştərilər (benefisiarlar), tərəfdaşlar, mümkün sifarişçilər (donorlar), rəqiblər və əks tərəflər;
- ətraf mühitin imkanları və maneələri. Bununla iqtisadi - siyasi konyuktura, hüquqi şəraitlər, təşkilatın yaradılmasına və inkişafına imkan yaradan, yaxud əksinə mane olan ümumi tendensiyalar və ictimai prioritetlər.
- Təşklatın daxili potensial imkanları (maliyyə, maddi, insan resursları)

<u>Beləliklə TKTM-in yaradılması strategiyası istəklərin, xarici şərtlərin və daxili imkanların kəsişməsindədir.</u>

TKTM-in təşkilati layihələndirilməsi gedişində qoyulan suallara cavab verilərək TKTM-in biznes modeli yaradılmalıdır. Bu zaman aşağıdakı suallara cavab verilməlidir.

a) TKTM kim tərəfindən və hansı təşkilatların maraqları naminə yaradılmışdır?
b) Mərkəzin hansı bazar fokusu vardır?
c) Mərkəz hansı növ fəaliyyətləri həyata keçirir?
d) Mərkəzin xidmətləri hansı müştərilərə yönləndirilmişdir?
e) Hansı təşkilati hüquqi forma gələcək TKTM-in məqsəd və vəzifələrinə daha çox cavab verir?

Qeyd etmək lazımdır ki, TKTM-lərin fəaliyyəti ilk növbədə elmi-tədqiqat nəticələrinin kommersiya istifadəsi üzrə geniş spektrli xidmətlərin göstərilməsinə yönləndirilir. Bununla əlaqədar TKTM - lərin fəaliyyət istiqamətləri kimi aşağıdakılar müəyyən edilə bilər:

**Birincisi, konsaltinq xidmətlərinin göstərilməsi, o cümlədən:**

- Texnologiyaların transferinə kömək göstərilməsi;
- Birgə elmi-tədqiqatların həyata keçirilməsinə kömək göstərilməsi;
- Texnologiyaların kommersiyalaşdırılması layihələrinin istifadəsinə dəstək verən təşkilati-hüquqi fəaliyyət, treninq, kauçinq və konsaltinq fəaliyyətinin göstərilməsi;

Sonuncu iki istiqamət özündə texnologiyaların idarə edilməsi portfeli və ƏM-i özündə birləşdirir və bunlar da öz növbəsində aşağıdakılardan ibarətdir:

- Yüksək kommersiya potensialı olan texnologiyaların komersiyalaşdırılması layihələrinin seçilməsi və qiymətləndirilməsinin aparılması;
- Kommersiyalaşdırma üçün nəzərdə tutulan texnologiyalar portfelinin, həmçinin bazarın tələb etdiyi elmi nəticələrə sifarişlər portfelinin yaradılması;
- Patent tədqiqatlarının aparılmasının təşkili üzrə xidmətlərin göstərilməsi;
- Müxtəlif növ ƏM və nou-haunun qorunmasının təmin edilməsi üzrə xidmətlərin göstərilməsi;
- Mühəndis-konsultasiya xidmətlərinin göstərilməsi üzrə lisenziya sazişlərinin, kontraktlarının, elmi-texniki və istehsalat əməkdaşlığı haqqında müqavilələrin və s. hazırlanmasının təmin edilməsi;
- İnnovativ müəssisələrin yaradılmasında intellektual payın qiymətləndirilməsinin aparılması;
- Patent sahiblərinin hüquqlarının pozulması və ədalətsiz rəqabət hallarında hüquqi kömək göstərilməsi;

- Texnologiyaların kommersiyalaşdırılması layihələrinin irəli sürülməsi
- TKTM-in fəaliyyəti üzrə layihələrin və texnologiyaların kommersiyalaşdırılması layihələrinin təbliğ və reklam edilməsi.

**İkincisi, kommersiyalaşdırma üçün yaradılan strukturlarla (startaplar, spinautlar vəs.) idarəetməsinin həyata keçirilməsi, yəni yüksək texnolji biznesin yaradılması və aparılması.** Beləliklə, TKTM-lərin fəaliyyət istiqamətləri iki toplam blokda təqdim olunur, o cümlədən müvafiq olaraq konsaltinq xidmətlərinin göstərilməsi və yüksək texnologiyalı biznesin yaradılması və aparılması.

Bununla birlikdə qeyd etmək lazımdır ki, adətən göstərilən istiqamətlərdən hər hansı birinin yox, məhz prioritet istiqamətin seçilməsi həyata keçirilir. Bu zaman ikincisi müşayətedici qisimdə iştirak edir.

Azərbaycanda TKTM modellərinin yaradılması üzrə strategiyalar haqqında danışarkən ilk növbədə qeyd etmək lazımdır ki, TKTM-n missiyası və onun yaradılmasının başlıca məqsədi elmi-tədqiqat təşkilatlarında (universitetlər, ETİ, biznes - strukturlar) yaradılmış elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılmasına yönəldilmiş peşəkar fəaliyyətin təşkili ilə bağlıdır.

TKTM-lərin təsisçilərinə gəldikdə, qanunvericilik nöqteyi-nəzərdən TKTM-lərin təsisçisi kimi hər hansı təşkilat və fiziki şəxs çıxış edə bilər. Lakin real halda normativ-hüquqi aktlara uyğun olaraq TKTM Əqli Mülkiyyət Agentliyi tərəfindən yaradılmalıdır. Bu o deməkdir ki, təsisçilər sırasında Agentliyin olması mütləqdir və istisna etmir ki, Əqli Mülkiyyət Agentliyi onu müstəsna olaraq həm kommersiya, həm də qeyri-kommersiya əsasında yarada bilər. Həmçinin nəzərə almaq lazımdır ki, digər həmtəsisçilər, universitetlər, ETİ və s. ola bilər.

TKTM-in ümumi təşkilati-hüquqi və maliyyə strukturu barədə qeyd etmək lazımdır ki, o, həm Əqli Mülkiyyət Agentliyinin bir bölməsi kimi, həm də hüquqi şəxs kimi ola bilər. Öz növbəsində TKTM hüquqi şəxs kimi bir sıra təşkilati formalarda təqdim ouna bilər.

- Kommersiya təşkilatı (məhdud məsuliyyətli cəmiyyət - MMC)
- Qeyri-kommersiya təşkilatı (Fond və s.)
- Publik hüquqi şəxs (kommersiya fəaliyyətinin həyata keçirilməsi və ya həyata keçirilməməsi imkanları ilə)

**TKTM-lərin maliyyələşdirilməsi bir sıra formalarda həyata keçirilə bilər:**

a) Xüsusi olaraq büdcədən, həmçinin Əqli Mülkiyyət Agentliyi vasitəsilə subsidiyalar hesabına, yaxud qarışıq formada - büdcə yatırımları və Əqli Mülkiyyət Agentliyinin subsidiyası hesabına maliyyələşdirilməsi;

b) Yuxarıda qeyd olunan halda olduğu kimi, lakin qismən maliyyələşmə, sonradan özünümaliyyələşdirmə formasına keçmək şərtilə (kommersiya fəaliyyəti həyata keçirmək imkanı olan publik-hüquqi şəxs);

c) Müstəsna olaraq Əqli Mülkiyyət Agentliyi, yaxud təsisçilər (Əqli Mülkiyyət Agentliyi, universitetlər və ETİ) tərəfindən ilkin mərhələdə maliyyə cəhətdən özünü təmin edən və sonradan özünü maliyyələşməyə keçmək imkanı olan TKTM-in yaradılması və mümkün maliyyələşdirilməsi.

Sadalanan strukturlardan hər hansı biri yaradıla bilər və onlardan hər hansı birinin seçilməsi əlavə mülahizələr nəzərə alınmaqla həyata keçirilir. Baxmayaraq ki, TKTM -lərin hüquqi şəxs kimi (kommersiya, yaxud qeyri kommersiya təşkilatı) yaradılması daha çox xərclər nəzərdə tutur, bu forma daha tamdəyərli formadır və

digər formalarla müqayisədə maksimal dərəcədə çevikdir və fəaliyyət miqyasında praktiki məhdudiyyətlər yoxdur.

Yuxarıda qeyd edildiyi kimi hüquqi şəxslərin maliyyələşmə nöqteyi nəzərindən mümkün olan formasının seçilməsi ətraf və ətraf mühitin imkanları və maneə amilləri nəzərə alınmaqla həyata keçirilir. O cümlədən :

1) Birbaşa, yaxud yaradıldığı və tabeliyində fəaliyyət göstərdiyi orqan vasitəsilə xüsusi dövlət maliyyəsi ayrıldığı halda TKTM-lər üçün daha məqsədəuyğun forma kimi qeyri-kommersiya təçkilatı - fond ola bilər. Bu halda büdcədən dövlət məsrəflərinin "kompensasiyasi " kimi elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılmasından əldə olunan və dövlət büdcəsinə köçürülən mənfəət xidmət edəcək.

2) Sonradan öz maliyyə menecmentinə keçmək imkanı olan TKTM-lərin qismən dövlət büdcəsindən maliyyələşdirildiyi halda daha məqsədəuyğun forma publik hüquqi şəxs sayılır.

3) TKTM-lərin yaradılması və fəaliyyətinin dövlət maliyyələşməsi olmadığı halda daha məqsədəuyğun təşkilati forma kimi Agentliyin və ya Agentliyin universitetlər və ETİ-lərlə birgə təsisçisi olduğu məhdud məsuliyyətli cəmiyyətlər (MMC) ola bilər.

Real olaraq fəaliyyət istiqamətləri aspektində daha məqsədəuyğun olan konsaltinq infrastruktur təşkilatının yaradılmasıdır. Təhlillər göstərir ki, layihələşdirilən TKTM-i konsaltinq infrastruktur təşkilatı hüquqi şəxs qismində təqdim etmək daha məqsədəuyğundur. Bu təşkilatın təsisçisi mütləq olaraq Əqli Mülkiyyət Agentliyi olmalıdır, onun təşkilati-hüquqi strukturu isə maliyyələşmə formasından asılı olaraq ya qeyri kommersiya təşkilatı (Fond), publik hüquqi şəxs və ya məhdud məsuliyyətli cəmiyyətlər (MMC) formasında olacaq.

Qeyd edilənlər TKTM-in strategiya və modelini müəyyən edir və "hansı məqsəd və vəzifələrə çatmaq zəruridir" sualına cavab verir, artıq qeyd olunan biznes proseslərin təsviri isə "qoyulmuş məqsəd və vəzifələrə çatmaq üçün nə etmək lazımdır" sualına cavab verir. TKTM-lərin biznes-istiqamətlərinin, biznes proseslərinin və funksiyalarının təsviri də bu məqsədlə verilir.

Ardınca TKTM-in "bu vəzifələri kim yerinə yetirəcək və kim məsuliyyət daşıyacaq" sualına cavab verən təşkilati strukturu layihələndirilir. Bu məqsədlə əsas icraçılar müəyyən edilir, onların funksiya və vəzifələri təsvir olunur və işçi heyətə və onların kompetensiyalarına əsas kvalifikasiya tələbləri qoyulmalıdır.

**Praktiki fəaliyyətlər. Ali təhsil və elmi tədqiqat müəssisələrin əqli fəaliyyət nəticələrinin və mövcud innovasiya layihələrinin monitorinqi.**

İxtiraların müəllifləri və innovasiya layihələrin icraçıları ilə daha ətraflı tanış olmaq üçün bir neçə universtetlərlə işgüzar münasibətlər qurulmuşdur:

- Azərbaycan Neft Akademiyası (Əqli mülkiyyətin idarə edilməsi mərkəzi);
- Azərbaycan Memarlıq və İnşaat Universiteti (kafedralar üzrə perspektiv layihələr aşkar edilməsi və onlara dəstəyin göstərilməsi);
- Azərbaycan Mühəndislik Universiteti (Mühəndislik fakultəsində innovativ layihələrdə və universitetin texnoparkında startap layihələrdə yaranan əqli mülkiyyət hüquqların qorunmasında ekspert dəstəyi);

Yaxın dövrdə ADA Universitetinin, Azərbaycan Texniki Universitetinin, Sumqayıt Dövlət Universitetinin, Azərbaycan Aqrar Universitetinin tədris və elmi bölmələrində yeni texniki həllərə əsaslanan və kommersiyalaşma potensialı olan layihə təkliflərinin dəyərləndirilməsinin həyata keçirilməsi nəzərdə tutulur.

## 5. Əqli mülkiyyət hüquqlarının obyektlərinin qeydiyyatı.

Hesabat ilində əqli mülkiyyət hüquqlarının obyektləri barəsində daxil olmuş iddia sənədlərinin qanunvericilikdə müəyyən edilmiş qaydada ekspertizası və əqli mülkiyyət hüquqları obyektlərinin dövlət qeydiyyatı aparılmış, müvafiq mühafizə sənədləri verilmiş, hüquq sahibləri və istifadəçilər haqqında məlumatlar milli informasiya sistemin daxil edilmiş və sistemin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Bununla əlaqədar aşağıdakı istiqamətlərdə tədbirlər görülmüşdür:

**5.1. İxtira, faydalı model, əmtəə nişanı, sənaye nümunəsi və coğrafi göstəricilərə dair daxil olmuş iddia ərizələrinə baxılması və nəticələri.** Hesabat ilində Əqli Mülkiyyət Agentliyinə ixtiraya dair 171, faydalı modelə dair 41 iddia sənədi, 16 beynəlxalq iddia sənədi (PCT) və 44 Avrasiya iddia sənədi daxil olmuşdur.

İddia sənədlərinin ekspertizası nəticəsində 20 Avrasiya İddia sənədi, 14 PCT İddia sənədi, 145 müsbət nəticə haqqında bildiriş, 53 ilkin ekspertizanın sorğusu, 5 İddia sənədi üzrə kargüzarlığın dayandırılması haqqında bildiriş, 2 imtina haqqında bildiriş,14 müxtəlif növ bildiriş göndərilib, 178 axtarış, o cümlədən sifariş ilə 4 axtarış aparılıb.

Mahiyyətcə ekspertiza üzrə: 172 sorğu, iddia sənədi barəsində məlumatın dərci haqqında 99 qərar, patent verilməsindən imtina haqqında 6 qərar, patent verilməsindən imtina haqqında 3 bildiriş, kargüzarlığın dayandırılması haqqında 46 bildiriş, 33 müxtəlif növ bildirişlər, iddia sənədinin dəyişilməsi haqqında 10 bildiriş göndərilmişdir. Bununla yanaşı, milli qeydiyyat proseduru üzrə əmtəə nişanlarına dair 1807, sənaye nümunələrinə dair 40 və coğrafi göstəricilərə dair 5 iddia ərizəsi daxil olmuşdur.

Kargüzarlıqda olan iddia sənədləri üzrə aparılan ekspertizanın nəticələrinə görə, əmtəə nişanlarına dair 600 ilkin ekspertizanın bildirişi, 1244 iddia sənədinin baxılmağa qəbul edilməsi barədə arayış, 50 ekspertizanın sorğusu, 82 iddia sənədinin geri çağırılması haqqında bildiriş, 1046 əmtəə nişanının qeydiyyata alınması haqqında qərar, 160 əmtəə nişanının qeydiyyatından imtina edilməsi haqqında bildiriş, 53 əmtəə nişanının qeydiyyatından imtina edilməsi barədə qərar, coğrafi göstəriciyə dair 3 ilkin ekspertiza bildirişi, coğrafi göstəriciyə dair iddia sənədinin baxılmağa qəbul edilməsi haqqında 4 arayış, coğrafi göstəriciyə dair 3 ekspertiza sorğusu, iddia sənədinin geri çağırılması haqqında 1 bildiriş, coğrafi göstəricinin qeydiyyata alınması haqqında 12 qərar, sənaye nümunələrinə dair 20 ilkin ekspertiza sorğusu, iddia sənədi üzrə kargüzarlığın dayandırılması haqqında 9 bildiriş, ilkin ekspertizanın müsbət nəticələri haqqında 21 bildiriş, sənaye nümunəsinin mahiyyəti üzrə 3 ədəd ekspertizasının sorğusu, 1 ədəd sənaye nümunəsinə patent verilməsindən imtina haqqında bildiriş, sənaye nümunəsinə məlumatların dərc edilməsi haqqında 29 ədəd qərar, sənaye nümunəsinə patent verilməsindən imtina edilməsi haqqında 1 ədəd qərar tərtib edilərək iddiaçılara təqdim edilmişdir.

Əmtəə nişanlarının beynəlxalq qeydiyyatı üzrə Madrid sazişi və ona dair Protokol çərçivəsində daxil olan bildirişlərin sayı 2639 olmuşdur. Hesabat dövründə 3041 bildiriş üzrə müvafiq ekspertiza aparılmışdır. Onlardan 214 üzrə əmtəə nişanının qeydiyyatına dair ilkin imtina qərarları tərtib edilərək Ümumdünya Əqli Mülkiyyət Təşkilatına göndərilmişdir. Yerli iddiaçılar tərəfindən 8 əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair iddia sənədi ilə müraciət daxil olmuşdur. Onlardan 4 ədədi üzrə ilkin

ekspertiza başa matdırıldıqdan sonra Ümumdünya Əqli Mülkiyyət Təşkilatına göndərmişdir. 4 əmtəə nişanı isə hal-hazırda ilkin ekspertiza mərhələsindədir.

Hesabat dövründə Haaqa sistemi vasitəsi ilə Sənaye nümunələrinin beynəlxalq qeydiyyatına dair 130 bildiriş daxil olmuşdur. Onlardan 111-nin üzrində ekspertiza başa çatdırılaraq müsbət qərar qəbul edilmişdir. 2 sənaye nümunəsinin qeydiyyatına dair imtina qərarı qəbul edilərək Beynəlxalq Büroya göndərilmişdir. Hal-hazırda 17 bildiriş üzrə ekspertiza davam etdirilir.

**5.2. Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.** 2018-ci il ərzində **2973** müraciət və ərizə daxil olmuşdur.

**Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı üzrə Dövlət reyestrində:**

- **İxtiralara dair 64 patent** qeydiyyata alınmışdır. Onlardan **54**-ü milli, **10**-u xarici hüquqi şəxslərə məxsusdur.
- **Faydalı modellərə dair 16 patent** qeydiyyata alınmışdır. Onlardan **15**-i milli, **1**-i xarici hüquqi şəxslərə məxsusdur.
- **Sənaye nümunələrinə dair 24 patent** qeydiyyata alınmışdır. Onlardan **11**-i milli, **13**-ü xarici hüquqi şəxslərə məxsusdur.

Müvafiq Dövlət reyestrində **1070 əmtəə nişanı** qeydiyyata alınmışdır. Onlardan **720**-si milli, **350**-si xarici fiziki və hüquqi şəxslərə məxsus olmuşdur.

Təqdim olunan cədvəllərdə 2018-ci ildə **ixtiraya dair** qeydiyyatdan keçmiş patentlər, **faydalı modelə dair** qeydiyyatdan keçmiş patentlər və onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə paylanması, **sənaye nümunəsinə dair** qeydiyyatdan keçmiş patentlər və onların Sənaye nümunələrinin beynəlxalq təsnifatının sinifləri üzrə paylanması göstərilmişdir.

| BPT-nin bölməsi | | İxtiralara dair patentlərin sayı | |
|---|---|---|---|
| | | 2018 | |
| | | milli | xarici |
| A | İnsanın həyarı tələbatların təmin edilməsi | 8 | 2 |
| B | Müxtəlif texnoloji proseslər | 3 | 1 |
| C | Kimya və metallurgiya | 33 | 1 |
| D | Toxuma mallar və kağız | - | - |
| E | Tikinti, mədən işləri | 3 | 5 |
| F | Mexanika, işıqlandırma, isitmə, mühərriklər və nasoslar, silah və döyüş sürsatı, partlama işləri | 3 | - |
| G | Fizika | 3 | - |
| H | Elektrik | 1 | 1 |
| Cəmi | | 54 | 10 |

| BPT | Faydalı modellərə dair patentlərin sayı | |
|---|---|---|
| | 2018 | |
| | milli | xarici |
| A | 6 | 1 |
| B | 2 | - |
| C | - | - |
| D | - | - |
| E | 1 | - |
| F | 3 | - |
| G | 2 | - |
| H | 1 | - |
| Cəmi | 15 | 1 |

| SNBT | Sənaye nümunələrinə dair patentlərin sayı | |
|---|---|---|
| | 2018 | |
| | milli | xarici |
| 06 | - | 1 |
| 09 | 3 | 4 |
| 15 | - | 1 |
| 21 | - | 1 |
| 23 | - | 4 |
| 25 | 8 | 1 |
| 32 | - | 1 |
| Cəmi | 11 | 13 |

**Coğrafi göstəricilər** üzrə istifadə hüquqlarına dair **12 ədəd şəhadətnamə** milli hüquqi şəxs adına qeydiyyata alınmışdır.

Patentlərin qüvvədə olma müddətinin uzadılması barədə **246** ədəd, şəhadətnamələrin qüvvədə olma müddətinin uzadılması barədə **586** ədəd, əmtəə nişanlarına dair **270** ədəd və patentlərə dair **5** ədəd dəyişikliklər edilməsi haqqında bildiriş qeydiyyata alınmışdır, **11** ədəd dublikat, **38** ədəd çıxarış verilmişdir və **670** ədəd bildiriş göndərilmişdir.

Sənaye mülkiyyəti obyektləri üzrə **95** ədəd müqavilə qeydiyyata alınmışdır. Onlardan **82** ədədi əmtəə nişanları üzrə hüquqların, **1** ədədi ixtira üzrə hüquqların verilməsinə, **12** ədədi əmtəə nişanları üzrə istifadə hüququna dair lisenziya verilməsinə aiddir.

2018-ci ildə əmtəə nişanlarına dair **qeydiyyatdan keçmiş əmtəə nişanlarının sahiblərininn mənsub olduğu ölkələr** üzrə məlumatlar cədvəldə göstərilmişdir.

| Ölkələr | Ölkənin kodu | Qeydiyyata alınmış əmtəə nişanlarının sayı |
|---|---|---|
| | | 2018 |
| Birləşmiş Ərəb Əmirlikləri | AE | 18 |
| Avstriya | AT | 2 |
| Argentina | AR | 1 |
| Azərbaycan Respublikası | AZ | 720 |
| Bosniya və Herseqovina | BA | 1 |
| Braziliya | BR | 1 |
| Baqam Adaları | BS | 1 |
| Kanada | CA | 2 |
| İsveçrə | CH | 18 |
| Çin | CN | 10 |
| Kipr | CY | 2 |
| Kuba | CU | 1 |
| Kürasao | CW | 1 |
| Çexiya Respublikası | CZ | 3 |
| Almaniya | DE | 15 |
| Danimarka | DK | 3 |
| İspaniya | ES | 6 |
| Fransa | FR | 11 |
| Böyük Britaniya | GB | 20 |
| Gürcüstan | GE | 1 |
| Yunanıstan | GR | 3 |
| Xorvatiya | HK | 2 |
| Macarıstan | HU | 1 |
| İndineziya | ID | 1 |
| İrlandiya | IE | 2 |
| Men adası | IM | 1 |

| | | |
|---|---|---|
| Hindistan | IN | 8 |
| İran | IR | 3 |
| İtaliya | IT | 3 |
| Yaponiya | JP | 23 |
| Koreya Respublikası | KR | 6 |
| Şri-Lanka | LK | 4 |
| Litva | LT | 1 |
| Lüksemburq | LU | 1 |
| Kuveyt | KW | 2 |
| Malaziya | MY | 2 |
| Mavriki | MU | 3 |
| Niderland | NL | 3 |
| Norveç | NO | 1 |
| Oman | OM | 1 |
| Polşa | PL | 1 |
| Portuqaliya | PT | 6 |
| Rusiya Federasiyası | RU | 27 |
| Saudiyyə Ərəbistanı | SA | 2 |
| İsveç | SE | 2 |
| Singapur | SG | 1 |
| Kaykos Adaları | TC | 3 |
| Türkiyə | TR | 33 |
| Ukrayna | UA | 4 |
| Birləşmiş Krallıq | UK | 1 |
| ABŞ | US | 79 |
| Virginiya adaları | VG | 3 |
| Cəmi | | 1070 |

Hesabat dövründə sənaye mülkiyyəti obyektlərinin hüquqi statusu və onlar haqqında sonrakı dəyişikliklər, müəlliflər, iddiaçılar və hüquq sahibləri haqqında, sənaye mülkiyyəti obyeklərinə dair hüquqların, onlardan istifadəyə dair lisenziya müqavilələrinin verilməsi və bu sahəyə dair digər reyestrə daxil edilmiş məlumatlar “Sənaye Mülkiyyəti” rəsmi bülletenində dərc edilmişdir.

**5.3. Müəllif hüquqları obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.** Hesabat ili ərzində **333** müəllifin **568** əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında **574** Şəhadətnamə verilmişdir, o cümlədən “Elektron xidmət” bölməsi vasitəsi ilə müəlliflərin **21** müraciəti əsasında **16** əsər qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında **16** şəhadətnamə verilmişdir. Bununla yanaşı, hesabat ilində **15** müqavilə qeydiyyatdan keçirilmişdir.

Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2019-cu il 1 yanvar tarixinədək Agentlikdə bütövlükdə **12122** əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən “Elektron xidmət” bölməsi vasitəsi ilə 97 müəllifin 193 əsəri qeydiyyatdan keçirilmişdir.

1996-2018-ci illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı (faizlə)
(on-line qeydiyyat daxil olmaqla)




## 6. Kreativ iqtisadiyyat

Son illər ölkəmizdə kreativ sənaye sürətlə inkişaf etməkdədir. Hesabat dövründə müəllif hüququna əsaslanan kreativ sənayenin 2017-ci il üzrə milli iqtisadiyyat sahələrinə dair faktiki statistik göstəriciləri və dövlət büdcəsi rəqəmləri toplanmış və təhlil edilmişdir. Müəllif hüququna əsaslanan milli iqtisadiyyat sahələrində istehsalın həcmi müəyyən ediləndən sonra, bu sahələrin ölkə üzrə ümumi daxili məhsulda xüsusi çəkisi hesablanmışdır. Əqli Mülkiyyət Agentliyində aparılan təhlil və hesablamalar göstərir ki, Azərbaycanın ÜDM-də müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan kreativ sənayenin payı getdikcə artmaqdadır. Bu isə müəllif hüququ sahəsinin inkişafının əsas göstəricidir. Son 10 ildə ölkənin ÜDM-də müəlliflik hüququna əsaslanan kreativ sənayenin payı 2007-ci ildə 3,2%-dən 2018-ci ilin 1 yanvarına olan vəziyyətə görə 5,1%-ə çatmış və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir. 2017-ci ildə Azərbaycanda müəlliflik hüququna əsaslanan sahələrdə istehsalın həcmi 3549,1 mln. manat təşkil etmişdir.

| | |
|---|---|
| Əsas müəllif hüququ industriyasının sahələri, istehsalları və digər bölmələri | – 1976,1 mln. manat (2,9 %) |
| Qarşılıqlı asılılıq münasibətlərində olan sahələr | – 567,5 mln. manat (0,8 %) |
| Müəllif hüququna qismən əsaslanan sahələr | – 226,6 mln. manat (0,3 %) |
| İndustriyanın köməkçi sahələri | – 778,9 mln. manat (1,1 %) |
| CƏMİ: | – 3549,1 mln. manat (5,1 %) |

***Azərbaycanın müəlliflik hüququna əsaslanan industriyasının və əsas müəlliflik hüququnun (əsas sahələr) ÜDM-də payı***



***Qeyd:*** *Qrafik 2018-ci il 1 yanvara olan vəziyyəti göstərir. 1-ci sütun müəlliflik hüququna əsaslanan sənayenin ÜDM-də xüsusi çəkisini, 2-ci sütun isə müəlliflik hüququnun əsas istehsal sahələrinin xüsusi çəkisini göstərir.*

**"Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında"** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Fərmanın aidiyyəti üzrə icrasinin təmin edilməsi məqsədi ilə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Texnologiya və innovasiyalar" işçi qrupuna əqli mülkiyyətə aid indikatorlar üzrə ölkəmizin beynəlxalq reytinqlərinin yaxşılaşdırılması üçün təkliflər hazırlanaraq təqdim edilmiş, ölkəmizdə innovasiya infranstrukturun əsas elementlərini inkişaf etdirmək, ixtiraçılıq fəaliyyətinin keyfiyyətini artırmaq məqsədilə texnologiya transferi və kommersiyalaşma mərkəzlərin yaradılması üçün lazımı addımlar atılmış və onların biznes modelləri hazırlanmış və gələn ildən etibarən belə mərkəzlərin yaradılması və fəaliyyətə başlaması planlaşdırılır. "26-30 oktyabr - İnnovasiya həftəsi" çərçivəsində Agentliyin nümayəndəsi "İnnovasiyalı inkişafda əqli mülkiyyətın qorunması məsələləri" mövzusunda tədbirdə "Kreativ industriyanın inkişafı" adlı məruzə ilə çıxış edərək, bu sahədə son illər baş verən iqtisadi proseslərin təhlilinin nəticələri barədə məlumat vermişdir.

Bununla yanaşı, hesabat dövründə beynəlxalq təşkilatların hesabatları, o cümlədən Dünya İqtisadi Forumunun 2018-ci il üçün nəşr olunan Qlobal Rəqabətlilik İndeksi üzrə Hesabatı təhlil edilmişdir. Forumun açıqladığı GCI-2018 üzrə ölkələrin rəqabətqabiliyyətlilik reytinqinə uyğun olaraq, Azərbaycan dünya ölkələri arasında 69-cu yeri tutub. Qeyd etmək lazımdır ki, reytinqin müəyyən edilməsi üzrə hesablamalar əvvəllər tətbiq olunan metodikadan xeyli dərəcədə fərqlənən yeni metodika əsasında həyata keçirilmişdir. Reytinq 12 mövqe üzrə tərtib edilmişdir və əqli mülkiyyət mövqeyi nəzərindən 1-ci mövqe - "Təsisatlar" vacib əhəmiyyətə malikdir. "Təsisatlar" mövqeyində "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə Azərbaycan 4.8 bal yiğaraq 36-cı yerdə qərarlaşıb (ötən il 37-ci yeri tutmuşdur). "Əqli mülkiyyətin qorunması" göstəricisi üzrə Azərbaycan MDB dövlətləri arasında 1-ci yer tutur və müvafiq olaraq Ermənistandan 30, Gürcüstandan isə 54 pillə irəlidədir və Cənubi Qafqaz ölkələri arasında şəksiz liderdir. Müqaisə üçün qeyd edək ki, Rusiya Federasiyası 85-ci, Ukrayna isə - 114-cü yerdədir.

Əqli mülkiyyətlə əlaqəli olan "İnnovasiya" mövqeyi üzrə Azərbaycan 71-ci yeri tutur və müvafiq olaraq 85-ci yerdə olan Gürcüstanı və 87-ci yerdə olan Qazaxıstanı xeyli qabaqlayır. Bu mövqe üzrə Rusiya Federasiyası (36-cı yer) və Ukrayna (58-ci yer) liderlik edirlər. Hazırda Azərbaycanın "İnnovasiya" mövqeyi üzrə göstəricilərinin yaxşılaşması üçün bu mövqeyə daxil olan patent sahəsində və ticarət markaları sahəsində fəallığın yüksəldilməsinə yönəlmiş tədbirlər həyata keçirilir.

"Patent ərizələri" və "Əmtəə nişanlarına ərizələr" göstəricilərinə görə Azərbaycan müvafiq olaraq, 87-ci və 101-ci yeri tutur. Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarına əsasən yeni yaradılmış Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırda bu istiqamətdə, həm də elmi nəşrlərin H-indeksi istiqamətində işlər görülür.

Eyni zamanda İxtira, faydalı model, sənaye nümunələr, əmtəə nişanlarına, coğrafi göstəricilər üzrə məlumat bazasını təhlili aparilmış, beynəlxalq inteqrasiya prosesinin sürətləndirilməsi və nüfuzlu beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması sahəsində təkliflər işlənib hazırlanmışdır.

## 7. Əqli mülkiyyət hüquqlarının təminatı və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.

**7.1. Hüquqların təminatı.** Hesabat ilində müəllif hüquqlarının təminatı və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması məsələləri diqqət mərkəzində saxlanılmış, ölkəmizdə piratçılığın səviyyəsinin azaldılması və plagiata qarşı mübarizənin gücləndirilməsi istiqamətlərində müvafiq dövlət qurumları ilə əlaqəli tədbirlər həyata keçirilmişdir.

Hüquqların təminatı və piratçılığa qarşı mübarizə tədbirləri çərçvəsində nəzarət markalarının tətbiqi prosesi davam etdirilmiş, nəzarət markalarının tətbiqi ilə bağlı bir sıra təşkilatların səlahiyyətli nümayəndələri, o cümlədən naşirlərlə görüşlər keçirilmiş, müvafiq izahatlar verilmiş, onların elektron poçt ünvanlarına qanunvericilikdə nəzərdə tutulmuş müvafiq sənədlər göndərilmişdir. Bununla yanaşı, hazırda CD və DVD sahəsində nəzarət markalarının tətbiqinə başlanılması istiqamətində iş davam etdirilir.

Hüquqların təminatı ilə bağlı tədbirlər çərçivəsində 10-11 sentyabr 2018-ci il tarixlərində Əqli Mülkiyyət Agentliyi, ABŞ-ın Ticarət Departamenti Kommersiya Hüququnun İnkişafı Departamenti (CLDP), ABŞ-ın Bakıdakı Səfirliyi və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə “Əqli mülkiyyət mübahisələrinin həlli” mövzusunda hakimlər üçün təlim keçirilmişdir. Təlimə birinci və apellyasiya instansiyası məhkəmələrinin ümumi və ixtisaslaşmış hakimlərindən ibarət olmaqla 19 nəfər hakim cəlb olunmuşdur. Təlimin məqsədi əqli mülkiyyət hüququ obyektlərinin mühafizəsi ilə bağlı Azərbaycan təcrübəsinin öyrənilməsi və ABŞ təcrübəsinin bölüşdürülməsi, xüsusilə məhkəmə qərarlarının müzakirəsi, əqli mülkiyyət hüququ obyektlərinin dəyərinin müəyyənləşdirilməsi və bununla bağlı vurulmuş zərərin hesablanması məsələləri üzrə beynəlxalq təcrübə nəzərə alınmaqla hakimlərin biliklərinin dərinləşdirilməsi olmuşdur.

Tədbirdə əqli mülkiyyət sahəsində respublikada baş vermiş son institusional dəyişikliklər barədə məlumat verilmiş, ölkə başçısının bu sahəyə verdiyi diqqət və qayğı bir daha vurğulanmış, əqli mülkiyyət mübahisələri üzrə məhkəmə təcrübəsinin öyrənilməsinin əhəmiyyəti qeyd edilmiş, “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Qanuna uyğun olaraq, əqli mülkiyyət hüquqlarının pozulması ilə əlaqədar iddianı təmin etmək üçün məhkəmələr tərəfindən tətbiq olunmalı tədbirlərin (exparte), qəbul olunmuş məhkəmə aktlarının dərc olunmasının vacibliyi, eyni zamanda mübahisələrə vaxtında baxılmamasının vətəndaşların və sahibkarların dövlətin hüquqi müdafiə mexanizminə olan etimadına xələl gətirə biləcəyi hakimlərin diqqətinə çatdırılmışdır. Eyni zamanda tədbirdə bu sahədə beynəlxalq aləmdə mövcud olan hüquqi mexanizmlərin təsirliliyi və tətbiqi, o cümlədən rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə sahəsində Azərbaycan və ABŞ təcrübəsi barədə məlumat verilmişdir.

**Plagiata qarşı mübarizə tədbirləri də diqqət mərkəzində saxlanmış,** bu çərçivədə Agentlik tərəfindən Azərbaycanda anti-plagiat informasiya sistemlərinin geniş istifadəsi və inkişafı istiqamətində müvafiq işlər görülmüş, bununla əlaqədar keçirilmiş tədbirlərdə müəllif-hüquq qanunvericiliyi nöqteyi-nəzərindən milli anti-plagiat elektron informasiya sisteminin ümumi prinsipləri və tələbləri izah edilmişdir.

Proqram təminatı sahəsində “Microsoft” şirkəti ilə əməkdaşlıq davam etdirilmiş, Şirkətin rəhbərliyi və nümayəndələri, həmçinin proqram təminatı sahəsində piratçılığa qarşı mübarizə üzrə əməkdaşlığın koordinasiya edilməsi üçün yaradılmış Agentliyin və “Microsoft Azərbaycan” şirkətinin nümayəndələrindən ibarət İşçi qrup üzvlərinin bir neçə işçi görüşü keçirilmiş, əməkdaşlıq məsələləri müzakirə edilmiş, son illər Azərbaycan hökumətinin kompüter piratçılığına qarşı mübarizə çərçivəsində, o cümlədən lisenziyalı proqram təminatına tam keçidlə bağlı Nəqliyyat, Rabitə və

Yüksək Texnologiyalar Nazirliyi ilə birgə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində ölkəmizdə kompüter piratçılığın səviyyəsinin xeyli aşağı düşdüyü vurğulanmış, Agentliklə "Microsoft" şirkəti arasında uzun illər mövcud olan faydalı əməkdaşlığın kompüter piratçılığı sahəsində bir sıra problemli məsələlərin həllində uğurlu nəticələr verdiyi qeyd olunmuş, tərəflər bu sahədə əməkdaşlığın daha da dərinləşməsində və proqram təminatı ilə bağlı məsələlərin həllində qarşılıqlı kömək göstərilməsində maraqlı olduqlarını bildirmişlər.

Hesabat ili ərzində, Agentliyin 960 nömrəli "Qaynar xətt"i və ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası" il ərzində müəlliflərin və digər hüquq sahiblərinin istifadəsində olmuş, müəlliflərin və digər hüquq sahiblərinin müəllif-hüquq məsələləri üzrə 1500-dən artıq müraciət və sorğusuna baxılmış və qaldırdıqları məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində köməklik göstərilmiş, Agentlik fəaliyyətə başladıqdan sonra sənaye mülkiyyəti obyektləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 21 iş üzrə 40-dan çox məhkəmə iclasında iştirak edilmiş, dövlət, məhkəmə orqanlarının və hüquq sahiblərinin sorğuları əsasında müəllif-hüquq məsələləri ilə bağlı 20-dək ekspert rəyi hazırlanmış, maarifləndirmə tədbirləri keçirilmişdir.




Görülən tədbirlər nəticəsində 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61%-dən **25%-ə**, audio-video məhsul bazarında 90%-dən **60%-ə**, proqram təminatında 96%-dən **74%-ə** düşmüşdür.

Bununla yanaşı, struktur islahatları çərçivəsində Agentliyin İdarə Heyətinin sədrinin 12 noyabr 2018-ci il tarixli 109 nömrəli əmri ilə Əqli Mülkiyyət Agentliyində Apellyasiya şurası yaradılmış və tərkibi təsdiq edilmişdir. Şura fəaliyyətə başladığı gündən 31.12.2018-ci il tarixədək daxil olmuş ərizələr üzrə bütün işlər (işlərin bəziləri birləşdirilib) baxılması üçün təyin edilmiş və maraqlı şəxslərə buna dair bildirişlər göndərilmişdir.

*2018-ci ilin yekunları üzrə Apellyasiya şurası tərəfindən işlərə baxılması vəziyyəti barədə statistik məlumat aşağıdakı cədvəldə əksini tapmışdır.*

| 31.12.2018-ci il tarixə- | Apellyasiya şurasının funk- | Digər ərizələrin sayı və icra vəziyyəti | 31.12.2018-ci il tarixədək baxılmış işlərin sayı |
|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| dək daxil olmuş müraciətlərin sayı | sional fəaliyyəti ilə bağlı ərizələrin sayı | | | |
| 119 | 118 | əmtəə nişanının geniş tanınmış hesab edilməsi ilə bağlı qaydaların izah edilməsi - 1 (cavablandırılmışdır) | 71 | ərizə tam və ya qismən təmin edilmişdir - 25 |
| | | | | ərizə rədd edilmişdir - 10 |
| | | | | ərizə baxılmamış saxlanmışdır (ərizə geri götürülmüşdür) - 3 |
| | | | | işə baxılması təxirə salınmışdır - 33 |

**7.1. Maarifləndirmə tədbirləri.** Hüquqi maarifləndirilmə məqsədi ilə Agentliyin təşkilatçılığı və iştirakı ilə 10 beynəlxalq və milli tədbir keçirilmiş, KİV-lərdə 300-ə yaxın informasiya, maarfləndirici və təbliğat xarakterli material dərc olunmuş, TV və radio kanallarında çoxsaylı veriliş və süjetlər göstərilmiş, Agentliyin təşkil etdiyi tədbirlərdə ölkəmizi, xarici ölkələri və beynəlxalq təşkilatları təmsil edən peşəkar mütəxəssislər, alimlər, beynəlxalq ekspertlər, tarixçilər və qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən əqli mülkiyyət məsələlərinə dair **80**-ə yaxın prezentasiya edilmiş, həmçinin Agentliyin nümayəndələri müxtəlif beynəlxalq tədbirlərdə **20**-yə yaxın təqdimatla çıxış etmişlər.

Maarifləndirmə tədbirləri çərçivəsində 26 yanvar 2018-ci il tarixində Agentliyin və Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkilatçılığı ilə "**İnformasiya cəmiyyətində müəlliflik və digər əqli mülkiyyət hüquqlarının mədəni, iqtisadi və hüquqi əhəmiyyəti**" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin yekunlarına həsr olunmuş konfrans keçirilmiş, qaliblər mükafatlandırılmışlar.

Maarifləndirici materialların nəşri və əhali arasında paylanması istiqmətində fəaliyyət davam etdirilmiş, ümumilikdə 2018-ci ildə 1800 nüsxəyə yaxın kitab, kitabça və broşuralar buraxılmış, çoxsaylı maarifləndirici materiallar, o cümlədən müəllif-hüquq sahəsi üzrə beynəlxalq konvensiya, müqavilə və sazişlər, həmçinin milli qanunvericilik aktları, digər normativ aktlar üç dildə (Azərbaycan, rus və ingilis dillərində) təkrar nəşr edilərək, maraqlı tərəflər arasında yayılması, həmçinin tədbirlər zamanı Agentliyin nəşrlərindən ibarət xüsusi sərgilər təşkil edilmişdir.



Ənənəvi olaraq "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" və "Beynəlxalq Əqli Mülkiyyət Günü" 2018-ci ildə də ölkəmizdə təntənəli şəkildə qeyd olunmuşdur. Bununla əlaqədar, Tədbirlər planı təsdiq edilmiş, ÜƏMT-nin baş direktoru Frensis Qarrinin və YUNESKO-nun Baş direktoru Odri Azulenin bu əlamətdar günlər münasibəti ilə ənənəvi müraciətləri Azərbaycan dilinə tərcümə olunaraq yayılmış, bu çərçivədə silsilə tədbirlər təşkil edilmişdir. Builki tədbirlər coğrafiyasının genişlənməsi ilə əlamətdar olmuş və respublikamızın bir sıra şəhər və rayonlarını da əhatə etmişdir.

Əqli Mülkiyyət Agentliyi hesabat ilində öz fəaliyyətində qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirmişdir. Xüsusən müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən ictimai birliklərin, o cümlədən "Azərbaycan Kinorejissorlar Gildiyası" İctimai Birliyinin və "Azərbaycan Müəllifləri" İctimai Birliyinin nümayəndələri ilə mütəmadi olaraq görüşlər keçirilir, fəaliyyətlərində şəffaflıq prinsiplərinə əməl etmələri tələb olunur, onların verdiyi təkliflər nəzərdən keçirilir, qarşılaşdıqları problemlərin aradan qaldırılması və qaldırdıqları məsələlərin həlli istiqamətində Agentliyin səlahiyyətləri çərçivəsində tədbirlər görülür.

Agentliyin nümayəndələri qeyri-hökumət təşkilatlarının keçirdikləri müxtəlif formatlı tədbirlərdə iştirak etmiş, onların qaldırdıqları məsələlərinin həllində səlahiyyətləri çərçivəsində köməklik göstərmişlər.

## 8. Mədəni irsin qorunması və erməni plagiatına qarşı mübarizə.

Mədəni irsin qorunması və erməni plagiatına qarşı mübarizə tədbirləri hesabat ilində diqqət mərkəzində saxlanmışdır. Bununla yanaşı, müasir mərhələdə plagiatın beynəlxalq problemə çevrildiyini nəzərə alaraq, müxtəlif tədbirlərdən istifadə olunmuş, müəllif-hüquq qanunvericiliyi nöqteyi-nəzərindən milli antiplagiat elektron informasiya sisteminin ümumi prinsipləri və tələbləri izah edilmişdir.

Ölkəmizdə erməni plagiatına qarşı mübarizə tədbirləri çərçivəsində görülən işlərin davamı olaraq aprelin 20-də Bakıda Agentliyin təşkiatçılığı ilə **"Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarımı ifşa edir"** mövzusunda konfrans keçirilmişdir.

Ənənəvi olaraq hər il erməni plagiatının ifşa edilməsinə həsr olunan tədbirlərin davamı olaraq keçirilən bu konfransın əsas məqsədi erməni saxtakarlıqlarının və ermənilərin mədəni irs nümunələrimizə iddialarının təkzibolunmaz tarixi faktlar və elmi dəlillər əsasında ifşa etmək olmuşdur. Tədbir KİV-lər vasitəsi ilə işıqlandırılmış, geniş rezonans doğurmuşdur.

Ümumiyyətlə, erməni saxtakarlıqlarına və plagiatçılığına qarşı mübarizə Agentliyin fəaliyyətində əsas yerlərdən birini tutur və hesabat ilində erməni saxtakarlıqlarının ifşa edilməsi istiqamətində fəaliyyət daim diqqət mərkəzində saxlanmış, erməni saxtakarlıqlarını ifşa edən "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", "Об азербайджанской модели мультикультурализма (на основе данных об идентичности)", "Заметки о мультикультурализме", "Армянский геноцид" или армянский террор?", **"**Моральный террор: против нематериального и материального культурного наследия**",** "Erməni tarixi uydurmalarının tarixinə giriş", "Öz-özünü təkzib edən "erməniçiliyin müəllif hüququ", "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ", "Fövqəladə hallar və əqli mülkiyyət hüquqları ilə qorunan mədəni dəyərlər" (Azərbaycan və ingilis dillərində) və s. kitabçalar, həmçinin "Erməni yadelli nağılları" kitabı və "Gəldim, gördüm..., mənimsədim" kitabçası (Azərbaycan, rus, ingilis və fransız dillərində) təkrar nəşr edilərək il ərzində Agentliyin keçirdiyi tədbirlərdə xarici qonaqlara, nümayəndələrə və tədbir iştirakçılarına paylanmışdır.

Bununla yanaşı, 2018-ci il sentyabrın 25-də Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil-qərargahında Azərbaycanın zəngin mədəni irs nümunələrinin təbliğ edilməsi məqsədilə keçirilmiş mədəni tədbiri xüsusi qeyd olunmalıdır. **"Mədəni yaxınlıq: fərqliliyin vəhdəti"** adlı tədbir Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi tərəfindən Azərbaycanın Cenevrədəki BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi ilə birgə təşkil olunmuşdur. Tədbirdə Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa Regional Qrupuna daxil olan ölkələr (Azərbaycan, Belarus, Rusiya, Qazaxıstan, Türkmənistan, Tacikistan və Qırğızıstan) milli mədəni irs nümunələrini təqdim ediblər.

Azərbaycan Respublikası tədbirdə ayrıca guşə ilə təmsil olunub və Əqli Mülkiyyət Agentliyi tərəfindən xalqımıza məxsus coğrafi göstəricilər təqdim olunub, milli mədəni irs nümunələri kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş xalça, kəlağayı, dolma və paxlava barədə ətraflı məlumatlar sərgilənib. Guşədə quraşdırılmış xüsusi ekranda Azərbaycan haqqında videoçarxlar nümayiş etdirilib, həmçinin tədbir iştirakçılarına Azərbaycanla bağlı milli suvenirlər təqdim olunub.

ÜƏMT-nin baş direktoru Frensis Qarri tədbirin açılışında çıxış edərək milli-mədəni irsin geniş ictimaiyyətə təqdimatının əhəmiyyətini diqqətə çatdırıb, cəmiyyət və dövlətin inkişafında müasir texnologiyalar və əqli mülkiyyətin xüsusi rolunu vurğulayıb.

Tədbir çərçivəsində iştirakçılara milli mətbəx nümunələri təqdim olunub. İştirakçılar Azərbaycan mətbəxinin dolma, lüləkabab, paxlava və s. kimi ləziz nemətlərini yüksək qiymətləndiriblər.

Mədəni tədbir barədə fikirlərini mətbuat üçün bölüşən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri bildirib ki, bu gün Azərbaycanda əqli mülkiyyətin qorunması sahəsinə böyük diqqət yetirilir. Dövlətimizin başçısı cənab İlham Əliyevin səyləri nəticəsində əqli mülkiyyət sahəsi inkişaf etdirilir, Azərbaycan beynəlxalq müqavilələrdə iştirak edir, ölkəmizdə institusional dəyişikliklər nəticəsində Əqli Mülkiyyət Agentliyi yaradılıb.

Mədəni tədbirdə ölkəmizin coğrafi mənşəyə malik milli-mədəni irs nümunələrinin, milli əmtəə nişanlarının təqdim olunduğu diqqətə çatdırılmış və vurğulanmışdır ki, Azərbaycan guşəsində təqdim olunan xalça, kəlağayı, eləcə də kulinariya nümunələri çox böyük dəyər və gücə malikdir. Onlar bir tərəfdən müasir coğrafi göstərici olmaqla yanaşı, digər tərəfdən də UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına – dünya inciləri sırasına daxil ediliblər. Bu mədəni tədbirdə Azərbaycan yeganə ölkədir ki, bu cür unikal formatda çıxış edir. Eyni zamanda, Azərbaycanın coğrafi göstəricilərinin həmin incilər sırasına daxil edilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ciddi səylər göstərdiyi xüsusi qeyd olunub.

Erməni plagiatına qarşı aparılan işlərin davamı olaraq, "Aman Tello" Azərbaycan xalq mahnısının ABŞ-da yaşayan etnik ermənilərin yaratdığı "System of A Down" rok-qrupu tərəfindən ifası və sosial şəbəkələrdə yayımlanması ilə əlaədar, Agentliyin hazırladığı və KİV-lər vasitəsi ilə yaydığı bəyanatda erməni iddialarının təkzibedilməz dəlillərlə əsassızlığı göstərilmişdir. Bildirilmişdir ki, erməni mənbələrindən də bəlli olduğu kimi, **XX əsrin əvvəllərində erməni musiqişünas S. Komitas indiki Ermənistan ərazisində məhz azərbaycanlıların yaşadığı kəndləri dolaşaraq yüzlərlə Azərbaycan və türk mahnılarını nota almışdır və bu mahnılardan biri də "Aman Tello" əsəridir.** Professor Kamran İmanovun araşdırmalarına əsasən, nəinki XX əsrin əvvəllərində, hətta XVII-XVIII əsrlərdə "elə bir erməni əlyazmasına rast gəlmək çətindir ki, onlarda qədim Azərbaycan mahnıları və havaları olmasın. Onların mətnlərinin çoxu Matenadaranda və Ermənistanın digər arxivlərində

saxlanılır... Qədim Azərbaycan nəğmələri nəinki erməni mühitində geniş istifadə edilir, nəinki toplanaraq arxivlərdə saxlanılır və imkan daxilində tərcümə olunur, həm də onlar digər folklor nümunələrimiz kimi, ermənilər tərəfindən nəşr olunurdu" (K. İmanov, "Erməni (yad) el(li) nağılları", Bakı, 2013, səh. 99).

1959-cu ildə çapdan çıxmış "Ensiklopedik musiqili lüğət"ə əsasən, "Erməni musiqisinin dahisi" kimi təqdim olunan S. Komitas üç mindən artıq mahnını yazıya köçürmüşdür ki, hazırda onlardan 500-ə yaxını saxlanılmaqdadır. Əslində, S. Komitas erməni musiqisinin banisi olmaqdan daha çox, gələcəkdə baş verəcək erməni plagiatının istinad nöqtəsinə çevrilmişdir. Hələ 1925-ci ildə Yerevanda Elm və İncəsənət İnstitutu yanında xalq musiqisi və folklorunun toplanması və öyrənilməsi üzrə xüsusi bölmə yaradılmışdır. Bu bölməyə S.Komitasın şagirdi S.Məlikyan rəhbərlik edirdi və bu qurumun işi əsasən Azərbaycan xalq musiqi əsərlərinin toplanması və onları erməni folklorunun nümunələri kimi təqdim olunmasından ibarət idi.

Müasir erməni musiqişünasları da S. Komitas və S. Məlikyanın yolunu davam edirlər. Komitasın XX əsrin əvvəlində nota aldığı "Aman Tello" ilə 80 il sonra O. Kazıminin "Aman Tello" (sözləri V. Əzizin: "...Bulaqların gözü doldu, İncitmədim özü doldu və s.) mahnısını qarşılaşdıraraq özlərinkini qədimləşdirməyə cəhd göstərirlər. Amma onların bilmədiyi və ya bilərəkdən gizlətdiyi məqam ondan ibarətdir ki, O. Kazıminin "Aman Tello" müəllif mahnısı və plagiata uğrayan "Aman Tello" xalq mahnısı tamamilə fərqli əsərlərdir. Belə ki, Əqli Mülkiyyət Agentliyinin eksperti, xalq artisti, professor Faiq Sücətdinovun rəyinə əsasən, musiqisi **Oqtay Kazımi, sözləri Vahid Əzizə, ifası M. Bağırzadəyə aid olan "Aman, Tello" mahnısı şur pərdəsində, xalq mahnısı "Aman, Tello" isə mahur pərdəsindədir.**

Plagiata məruz qalan "Aman Tello" mahnısının Türkiyədə də Ərdahan və Ərzurum versiyaları mövcuddur ("Tello gider, yan gider, Tello" və s.).

"Aman Tello" Azərbaycan xalq mahnısı 1908-ci ildə Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Məşədi Məhəmməd Fərzəliyev kimi tanınmış xanəndələrin də daxil olduğu xor ansamblı tərəfindən ifa olunub. Azərbaycan Dövlət səsyazma arxivinin direktoru Həsənxan Mədətovun Agentliyə verdiyi məlumata əsasən həmin ifa 1909-cu ildə "Varşava sport rekord" studiyası tərəfindən vala yazılmışdır. Bundan başqa, 1912-ci ilə aid həmin arxivin kataloqunda da "Aman Tello" mahnısı qeyd olunub. Xalq artisti F. Sücəddinovun rəyinə görə, "Aman Tello" Azərbaycan xalq mahnısı XIX əsrdə "Əlimdə sazım, qurbanım", "Süsən sünbül" və bir çox simfonik orkestr əsəri və bəstəkar mahnıları kimi mahur (keçidində) təsnifində yazılmışdır.

Ümumiyyətlə Azərbaycan folklorunda "Telli" antroponiminə, "telli" termininə bir çox mahnılar həsr olunmuşdur: "Telli yar", "Üç telli durna", "Qara tellər", "Tellər" (Aşıq Məhəmməd) və s.

"Tello" sözünün semantikasına gəlincə, "Telli" qız adının nəvazişli deyilişi "Tello" kimi səslənir. Belə ki Azərbaycanda və Anadoluda xalq dilində azyaşlıların və gənclərin adlarının sonuna nəvaziş, yaxınlıq ifadə edən"o" şəkilçisi əlavə edilir. Məsələn Nazlı–Nazo, Güllü–Gülo və s. Erməni dilində də "sap", "ipək" mənalarını ifadə edən türkcədən alınma "tel" (թել) sözü mövcuddur, lakin bu söz erməni lüğətlərində "telli", "gözəl saçlı", "yaraşıqlı" mənalarında işlənilmir.

Beləliklə, istər tarixi, istər etimoloji, istərsə də musiqişünaslıq baxımından "Aman Tello" mahnısının ermənilərə aidiyyəti yoxdur. Heç də təsadüfi deyildir ki, ənənəvi erməni qız adları siyahısında "Telli" adına rast gəlinmir.

Ümumiyyətlə, hesabat ilində erməni plagiatına qarşı mübarizə məsələsi diqqətdə saxlanmış, hər bir fakt üzrə əsaslandırılmış cavab tədbirləri görülmüşdür.

## 9. Elektron xidmətlərin təşkili

Hesabat ilində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nın təkmilləşdirilməsi, siyahıda olan, lakin tam fəaliyyət göstərməyən xidmətlərin fəaliyyətinin təmin edilməsi və "Elektron hökumət" portalına yeni xidmətlərin inteqrasiya edilməsi istiqamətində fəaliyyət davam etdirilmişdir.

Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin və Patent və Əmtəə Nişanları Mərkəzinin birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılması və ləğv edilmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının Əqli Mülkiyyət Agentliyinin tabeliyinə verilməsi ilə əlaqədar bu qurumların göstərdiyi dövlət xidmətlərinin fəaliyyətinin yüksək səviyyədə təmin olunması Əqli Mülkiyyət Agentliyinin üzərinə düşür.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 2018-ci il tarixli 537 nömrəli Qərarının 1-ci hissəsi ilə Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavəyə - "Elektron xidmət növlərinin Siyahısı"na dəyişikliklər edilmiş və Əqli Mülkiyyət Agentliyi tərəfindən həyata keçirilən elektron xidmətlərin siyahısına 7 elektron xidmət əlavə edilərək, belə xidmətlərin sayı 12-yə çatdırılmışdır. Yeni elektron xidmətlər aşağıdakılardır:

- Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;
- İxtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının və ya coğrafi göstəricinin reyestr məlumatlarından çıxarış verilməsi üçün müraciətin və sənədlərin qəbulu;
- Lisenziya müqavilələrinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;
- İxtiraya, faydalı modelə və ya sənaye nümunəsinə patent verilməsi üçün müraciətin və sənədlərin qəbulu;
- Əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;
- Apellyasiya şurasına etirazın (ərizənin) verilməsi;
- Audiovizual əsərin, fonoqramın, kompüter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə nəzarət markasının verilməsi.

Hazırda bu xidmətlərin "Elektron hökumət" portalı vasitəsi ilə göstərilməsi üzərində iş tamamlanmaq üzrədir.

Bununla yanaşı, hazırda Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi və Respublika Elmi-Texniki Kitabxanasının göstərdiyi xidmətlərin bir hissəsinin Elektron Hökumət portalında fəaliyyət göstərməsi üzrə işlər aparılır və yaxın vaxtlarda bununla bağlı təkliflərin müvafiq qaydada təqdim edilməsi planlaşdırılır.

Hesabat ilində "Elektron xidmət" bölməsi vasitəsi ilə müəlliflərin **20** müraciəti əsasında **15** əsər qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında **15** şəhadətnamə verilmişdir.

Bununla yanaşı, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı elektron xidmət vasitəsi ilə 1242 müraciət daxil olmuşdur.

"Elektron hökumət" portalının imkanları və istifadəsi ilə bağlı vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirləri çərçivəsində Agentliyin göstərdiyi elektron xidmətlərdən yararlanan şəxslərin "Elektron hökumət" portalının imkanlarından istifadə etməsi üçün hesabat dövründə təbliğat və təşviqat işlərinə və maarifləndirmə tədbirlərinə geniş yer verilmiş, Agentliyin təşkilatçılığı və ya iştirakı ilə keçirilmiş

konfrans, seminar və digər informativ tədbirlərdə bu barədə məlumat verilmiş, KİV-lərdə çoxsaylı informasiya və maarifləndirici material dərc olunmuşdur.

## 10. Beynəlxalq əməkdaşlıq

Hesabat ilində Agentliyin beynəlxalq əlaqələri və beynəlxalq münasibətlər sistemi çərçivəsində fəaliyyəti daha geniş və əhatəli olmuşdur. Qeyd etmək lazımdır ki, hesabat dövründə Azərbaycanın əqli mülkiyyət sahəsində beynəlxalq əməkdaşlıq əlaqələri həm çoxtərəfli beynəlxalq müqavilə və sazişlər, həm də ikitərəfli müqavilələr çərçvəsində aparılmışdır. Xüsusən dünyada əqli mülkiyyət hüquqlarının idarəçiliyini və bu sahədə aparılan işlərin koordinasiyasını həyata keçirən Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) ilə əməkdaşlığın dərinləşdirilməsinə böyük önəm verilmişdir. Bu çərçivədə ölkəmizdə müəlliflik hüququ və əlaqəli hüquqlar, eləcə də sənaye mülkiyyəti hüquqları sahəsində bir çox birgə beynəlxalq və regional tədbirər və layihələr həyata keçirilmiş, əqli mülkiyyət hüquqlarının qorunması və müdafiəsini təmin edən qanunvericilik bazasının formalaşdırılması, sahə üzrə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması, əqli mülkiyyət hüquqlarının qorunması sisteminin təkmilləşdirilməsi, hüquq-mühafizə orqanlarının əməkdaşları, o cümlədən hakimlər üçün sahə ilə bağlı xüsusi təcrübə və təlim kurslarının təşkili və s. istiqamətlərdə birgə işlər görülmüşdür.

Azərbaycan nümayəndələri ÜƏMT-nin Baş Assambleyası, Hökumətlərarası və Daimi Komitələri çərçivəsində keçirilən tədbirlərin iştirakçısı olmuş, ÜƏMT çərçivəsində qəbul edilən beynəlxalq müqavilələrin hazırlanması və qəbul edilməsi prosesində fəal iştirak edirlər. Hazırda Azərbaycan Respublikası ÜƏMT-nin fəaliyyətinin həyata keçirilməsində xüsusi rola malik olan Koordinasiya Komitəsinin, həmçinin Proqram və Büdcə Komitəsinin üzvüdür. Azərbaycan nümayəndəsi “ÜƏMT-nin Müəlliflik Hüququna dair Müqaviləsi”nin Assambleyasının vitse-prezidenti vəzifəsində təmsil olunur.

Agentliyin ÜƏMT ilə qurulmuş hərtərəfli və faydalı əlaqələrinin təsdiqi olaraq, bu nüfuzlu beynəlxalq təşkilatın Baş direktoru cənab Frensis Qarrinin 2014-cü ildə ölkəmizə etdiyi ilk rəsmi səfərindən sonra cari ilin 4-6 iyun tarixlərində Azərbaycan Respublikasına ikinci rəsmi səfəri baş tutmuşdur. Bu, ölkəmizdə əqli mülkiyyət sahəsində əldə olunan nailiyyətlərə ÜƏMT tərəfindən verilən yüksək qiymətin daha bir bariz nümunəsidir.

Səfər olduqca dolğun və Azərbaycan-ÜƏMT arasında əlaqələrin perspektivlərinin inkişaf etdirilməsi baxımından çox səmərəli olmuşdur. Dr. F.Qarrinin Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov, Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, xarici işlər naziri Elmar Məmmədyarov, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar (NRYTN) naziri Ramin Quluzadə, təhsil naziri Ceyhun Bayramovla görüşləri keçirilmiş, bu görüşlərdə Azərbaycan Hökuməti ilə ÜƏMT arasında əməkdaşlığın inkişafı məsələləri əsas müzakirə predmeti olmuşdur.

Baş nazirin müavini Ə.Əhmədovla görüş zamanı Azərbaycan Respublikası Hökuməti və ÜƏMT arasında əməkdaşlıq üzrə yeni Anlaşma Memorandumu imzalanmışdır. Bu sənəd onu imzalamış tərəflərin bir çox istiqamətlərdə birgə fəaliyyətlərin inkişaf etdirməsini nəzərdə tutur. Həmçinin Anlaşma Memorandumunun icrası ilə bağlı 2018-2021-ci illər üçün Fəaliyyət Planı müəyyən edilmişdir.

F. Qarri həmçinin Heydər Əliyev Mərkəzində Təhsil Nazirliyi, Əqli Mülkiyyət Agentliyi və ÜƏMT-nin birgə hazırladıqları “Universitet və elmi-tədqiqat institutlarında

əqli mülkiyyət siyasəti üçün Milli Layihə”nin və həmin Layihənin icrası ilə bağlı ÜƏMT və Təhsil Nazirliyi arasında imzalanmış Birgə Bəyannamə ilə nəzərdə tutulan tədbirlərin icrası çərçivəsində **“Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi”** mövzusunda beynəlxalq konfransda çıxış etmiş, **“Qeyri – maddi aktivlər və qlobal dəyərlər zənciri: İqtisadiyyat innovasiyaların faydalarından necə yararlanır?”** mövzusunda regional konfransda iştirak etmişdir.

F.Qarri çıxışında əqli fəaliyyətin lokallıq baxımından daha intensiv şəkildə Asiya qitəsində inkişaf etdiyini vurğulayaraq, strateji mövqeyə malik olan Azərbaycan kimi ölkələrin bu amildən faydalanmasını vacib saymışdır.

ÜƏMT-nin Baş direktoru həmçinin Nəqliyyat Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəzdindəki Yüksək Texnologiyalar Parkında yerli startaplarla tanış olmuşdur. Kreativ yanaşma meyarları üzərində ərsəyə gəlmiş bu layihələr ölkə rəhbərinin innovativ inkişafa verdiyi önəmə, bununla bağlı çağırışlarına cavab olaraq, Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli, dayanıqlı və təhlükəsiz inkişaf modelinin təşəkkül tapmasına istiqamətlənmiş addımlar sırasındadır. F.Qarri tədbirdə çıxışında demişdir ki, yeni texnologiyaların tətbiqi əqli mülkiyyətə qlobal səviyyədə marağı daha da artırmış, istehsal prosesində əqli mülkiyyət nəticələrinin tətbiqi isə iqtisadiyyatın strukturuna və inkişafına olduqca güclü təsir edir.

Səfərinin nəticələrinə dair F.Qarri Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanova ünvanladığı məktubunda ÜƏMT ilə Azərbaycanın əməkdaşlığın faydalı və səmərəli olduğunu, ikitərəfli əlaqələrin daha da genişlənməsinin əhəmiyyətini qeyd etmişdir.

Hesabat ilində ÜƏMT ilə əməkdaşlıq çərçivəsində Agentliyin nümayəndə heyəti ÜƏMT üzv-dövlətlərinin Assambleyasının İsveçrənin Cenevrə şəhərində 24 sentyabr – 2 oktyabr tarixlərində keçirilmiş 58-ci toplantısında iştirak etmiş, tədbir çərçivəsində F. Qarri ilə görüş keçirilmişdir.

Bu nüfuzlu yığıncaq çərçivəsində ÜƏMT-nin mənzil-qərargahında Azərbaycanın zəngin mədəni irs nümunələrinin təbliğ edilməsi məqsədilə “Mədəni yaxınlıq: fərqliliyin vəhdəti” adlı tədbir keçirilmiş, tədbirdə Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa Regional Qrupuna daxil olan ölkələrin (Azərbaycan, Belarus, Rusiya, Qazaxıstan, Türkmənistan, Tacikistan və Qırğızıstan) milli mədəni irs nümunələri təqdim edilmişdir.

Ayrıca güşədə xalqımıza məxsus coğrafi göstəricilər təqdim olunub, milli mədəni irs nümunələri kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş xalça, kəlağayı, dolma və paxlava barədə ətraflı məlumatlar verilmişdir.

Tədbirdə çıxış edən Agentliyin İdarə Heyətinin sədri bildirib ki, Azərbaycanda əqli mülkiyyətin qorunması sahəsinə böyük diqqət yetirilir, dövlətimizin başçısı İlham Əliyevin səyləri nəticəsində əqli mülkiyyət sahəsi inkişaf etdirilir, dayanıqlı və təsirli sistemin formalaşması istiqamətində institusional dəyişikliklər həyata keçirilir, Azərbaycan sahə üzrə beynəlxalq müqavilələrin hazırlanmasında, onların milli qanunvericiliyə implementasiya edilməsində və əməli tətbiqində iştirak edir.

Bu xüsusda cari il iyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış “Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi”nə qoşulmaq haqqında Azərbaycan Respublikasının Qanunu xüsusi əhəmiyyət daşıyır. Müqavilə ilə nəzərdə tutulmuş yeni hüquqi çərçivə kor və digər görmə əlilliyi olan şəxslərin elm, ədəbiyyat və incəsənət əsərlərindən istifadəsinə beynəlxalq səviyyədə təminat verir, belə şəxslər üçün əsərlərin mümkün əlçatımlı formatlarda çatışmazlığının aradan qaldırılmasına və bu nüsxələrin transsərhəd mübadiləsinə imkan yaradır.

Azərbaycana münasibətdə 2018-ci il 24 dekabr tarixində qüvvəyə minmiş bu müqavilə ökəmizin qoşulduğu ÜƏMT tərəfindən idarəçiliyi həyata keçirilən 16-ci müqavilə olmuşdur və ölkəmizin əqli mülkiyyət sahəsində yeritdiyi fəal beynəlxalq siyasətin növbəti nəticəsidir.

Beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi baxımından dekabrın 18-də ÜƏMT-nın baş qərargahında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Azərbaycanın innovativ və yüksək texnologiyalı startaplarına həsr olunan tədbir qeyd edilməlidir. Agentliyin, NRYTN-nin, ÜƏMT-nın və Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) birgə təşkilatçılığı ilə keçirilən sərgidə Azərbaycan startapçılarının hazırladığı 16 layihə təqdim olunmuş, onun açılışında ÜƏMT-nin, BTİ-nin nümayəndələri, Cenevrədə akkreditə olunmuş diplomatlar, beynəlxalq təşkilatların, akademik və biznes dairələrinin təmsilçiləri iştirak ediblər, Agentliyin İdarə Heyətinin sədri Kamran İmanov, nazir Ramin Quluzadə, ÜƏMT-nın baş direktoru Frensis Qarri, BTİ-nın baş katibi Hulin Zao çıxış ediblər.

Bu mötəbər auditoriyada ölkəmizin innovativ inkişaf sahəsində əldə etdiyi nailiyyətlər nümayiş etdirilib və müəyyən mənada iqtisadiyyatımızın ümumi mənzərəsinin təqdimatı olub və yüksək qiymətləndirilib.

Sərgi ilə yanaşı, nəzərdə tutulan tədbirlər Proqramı çərçivəsində ÜƏMT-nin binasında **“Azərbaycanda əqli mülkiyyətin inkişafı və onun regiona təsiri: innovativ və yüksək texnologiyalar üzrə startapların təqdimatı”** adlı konfrans keçirilib. Tədbirdə ÜƏMT-nın İnkişaf edən ölkələrlə əməkdaşlıq Departamentinin müdiri Mihal Svantner bu beynəlxalq təşkilatla Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə inkişaf etdiyini bildirib və qeyd edib ki, Azərbaycan əqli mülkiyyət hüquqlarının bütün sahələrində qanunvericilik bazasını inkişaf etdirib və qanunvericilik təkmilləşdirilir. Təmsil etdiyi təşkilat həm müəllif hüququ, həm də əqli mülkiyyətin digər sahələrində Azərbaycanla məsləhətləşmələr aparır və əməkdaşlıq inkişaf etdirilir.

Ənənəvi olaraq ÜƏMT bölmələri ilə fəal əməkdaşlıq siyasəti həyata keçirən ölkəmiz 2018-ci ildə bu təşkilatın rəhbər orqanlarında, o cümlədən onun Koordinasiya Komitəsində, Proqram və Büdcə Komitəsində, “ÜƏMT-nin Müəllif Hüququna dair Müqaviləsi”nin Assambleyasının vitse-prezidenti vəzifəsində təmsil olunmuşdur. Agentliyin əməkdaşları həmçinin ÜƏMT-nın müxtəlif komitələrinin sessiyalarında, o cümlədən Müəllif Hüquqları və Əlaqəli Hüquqlar üzrə Daimi Komitəsinin 37-ci, Patent Hüququ üzrə Daimi Komitənin 29-cu, Əqli mülkiyyət və genetik resurslar, ənənəvi biliklər və folklor üzrə Hökumətlərarası Komitəsinin 38-ci sessiyalarında fəal iştirak etmiş, bu tədbirlərdə beynəlxalq sənədlərin müzakirəsinə qatılmış, ölkəmizin mövqeyini əks etdirən təkliflər irəli sürmüşlər.

Bununla yanaşı, Sənaye mülkiyyəti sahəsində Azərbaycan Respublikasının müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, beynəlxalq müqavilələrdən və sazişlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi, beynəlxalq təşkilatların əqli mülkiyyətə dair sorğularının cavablandırılması, onlarla təcrübə mübadiləsinin aparılması, beynəlxalq təşkilatlarla birgə tədbirlərin keçirilməsi və s. işlər davam etdirilmiş, sənaye mülkiyəti ilə bağlı məsələlərə dair bir sıra konfrans və seminarlar keçirilmişdir.

Eyni zamanda Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə yanaşı, beynəlxalq təşkilatlardan Avropa Patent İdarəsi, Avrasiya Patent İdarəsi və bir sıra xarici ölkələrin patent strukturları ilə əməkdaşlıq əlaqələri inkişaf etdirilmişdir.

Qeyd edək ki, 22-23 oktyabr 2018-ci il tarixlərində Düşənbə şəhərində Avrasiya Patent Təşkilatının İnzibati Şurasının növbəti iclasında ölkəmizin namizədinin Avrasiya

Patent İdarəsinin vitse-prezidenti vəzifəsinə təyin olunması məsələsi müzakirə olunmuş və öz müsbət həllini tapmışdır.

Agentlik Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsində digər beynəlxalq müqavilələrdə iştirakından irəli gələn aidiyyəti öhdəliklərin yerinə yetirilməsi istiqamətində də sistemli fəaliyyət həyata keçirir. Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan və Gürcüstanla imzalanmış ikitərəfli hökumətlərarası sazişlərə uyğun olaraq əməkdaşlığın gücləndiliməsi ilə bağlı ardıcıl addımlar atılır. Bu mənada Agentliyin nümayəndələri həyata keçirilən tədbirlər çərçivəsində hesabat ili ərzində ÜƏMT-nin, Avrasiya Patent Təşkilatının, Qazaxıstanın, Qırğızıstanın, Moldovanın, Türkiyənin, Gürcüstanın, Rusiyanın nümayəndələri ilə Agentlikdə və ölkədən kənarda müxtəlif görüşlər keçirmiş, əqli mülkiyyət hüquqlarının təminatı sahəsində əməkdaşlıq məsələlərini müzakirə etmişlər.

Agentliyin nümayəndələri həmçinin Avropa Komissiyası tərəfindən təqdim edilmiş "Bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa İttifaqı arasında Strateji Tərəfdaşlıq haqqında Saziş" (bundan sonra - Saziş) layihəsinin iqtisadi bloku üzrə İşçi qrupun üzvü qismində sənədin "Ticarət, sərmayə, enerji ticarəti məsələləri" hissəsinin "Əqli mülkiyyət" fəslinin müvafiq müddəalarının mətnlərinin razılaşdırılması prosesinə cəlb olunmuşlar.

Bu çərçivədə Agentliyin nümayəndələri Avropa Komissiyasının aidiyyəti nümayəndələri ilə mütəmadi olaraq müxtəlif formatlı, o cümlədən video-konfranslar vasitəsi ilə aparılan müzakirələrdə, həmçinin danışıqlar zamanı Azərbaycan tərəfinin vahid mövqeyinin formalaşdırılması ilə bağlı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən təşkil edilən iclaslarda iştirak etmişlər.

Dekabr ayında Agentliyin nümayəndələri Saziş layihəsi üzrə Avropa Komissiyasının mütəxəssislərinin və ölkəmizin aidiyyəti qurumlarının nümayəndələrinin iştirakı ilə danışıqların Bakı şəhərində keçirilmiş üçüncü mərhələsində iştirak etmiş və əqli mülkiyyət sahəsi üzrə adıçəkilən sənədin müvafiq bölmələrinin müzakirələri zamanı ölkəmizin maraqlarını əks etdirən müddəaların sənəddə yer alması üçün səylər göstərmiş, bu qəbildən olan məsələləri tərəflərin təşkil etdiyi video-konfranslar zamanı da müzakirə etmiş və təkliflər vermişlər.

Avropa İttifaqı Komissiyası ilə birgə reallaşdırılması nəzərdə tutulan Tvinninq layihəsinin həyata keçirilməsi ilə bağlı işlər cari ildə də davam etdirilmişdir. Layihə rəqəmsal şəbəkələrdə əqli mülkiyyət hüquqlarının idarə olunması və qorunması məqsədilə Agentliyinin institusional potensialının gücləndirilməsini nəzərdə tutur.

Bundan əlavə, Aİ tərəfindən maliyyələşdirilən və 23 yanvar 2018-ci ildən həyata keçirilməyə başlanılan "Ümumdünya Ticarət Təşkilatına üzvlük danışıqlarında Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin ÜTT Departamentinə dəstək və potensialın gücləndirilməsi" layihəsi çərçivəsində Aİ-nın nümayəndəsi ilə görüşlər keçirilmiş və dəstək fəaliyyəti çərçivəsində müzakirə və ticarətlə əlaqəli fəaliyyətlərdə fəal iştirak etmək üçün əməliyyat və potensialın yaradılması ilə institusional potensialın gücləndirilməsi məqsədi ilə əsərlərin rəqəmsal mühitdə istifadəsi zamanı istifadəçilərin identikləşdirilməsi üçün avadanlıq və proqram təminatı ilə təchiz olunma ehtiyaclarının ödənilməsinə dəstək edilməsi məqsədi ilə müraciət olunmuşdur. Müraciət nəzərə alınaraq, layihənin təsdiq olunmuş İlkin Hesabatına əqli mülkiyyət sahəsini dəstəkləyən iki fəaliyyət salınmışdır. Bunlar – "Elektron KİV-lərdən istifadə zamanı istifadəçilərin identifikasiyası üçün proqram təminatı ehtiyaclarına dəstək" və "Əmtəə nişanları hüquqlarının pozulmasına qarşı Aİ-nın bazarda monitorinq təcrübəsini öyrənməyə dəstək" fəaliyyətləridir.

Eləcə də Agentliyin nümayəndələri ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzvolma prosesi çərçivəsində ikitərəfli danışıqlarla əlaqədar müqabil tərəflərin ünvanladığı çoxsaylı sualları cavablandırmaqla, bu prosesə öz töhfələrini vermişlər.

İnformasiya texnologiyalarının tətbiqi və əqli mülkiyyət hüquqlarının təminatı məsələləri ilə əlaqədar “Microsoft” şirkətinin nümayəndələri ilə silsilə danışıqlar aparılması nəticəsində bu sahədə birgə fəaliyyət davam etdirilir.

Hesabat ilində yuxarıda qeyd olunanlarla yanaşı. Agentliyin təşkilatçılığı və dəstəyi ilə Bakıda keçirilmiş bir sıra digər beynəlxalq tədbirləri, həmçinin təşkil olunmuş təlimləri də qeyd etmək lazımdır, o cümlədən:

- Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında imzalanmış Memorandum çərçivəsində 19 - 23 fevral 2018-ci il tarixlərində “Mənşə yeri adları və Coğrafi göstəricilərin fərqləndirici əlamətləri və mühafizə**”** mövzusunda 5 günlük təlimlərin dördüncü mərhələsi;

- Ümumdünya Əqli Mülkiyyət Təşkilatının dəstəyi ilə yaradılmış Texnologiya və İnformasiyalara Dəstək Mərkəzlərinin (TİDM) işçiləri üçün patent axtarış sistemlərinə dair 2018-ci il 12-16 mart tarixlərində təlim kursları. Təlimin əsas məqsədi TİDM-də patent axtarışı ilə məşğul olan kadrlara yerli və beynəlxalq patent bazalarında axtarışın aparılması qaydalarının öyrədilməsi olmuşdur.

- ÜƏMT ilə birgə əməkdaşlıqda **“**Əqli mülkiyyətə hörmətin aşılanması” mövzusunda 2018-ci il 3-4 may tarixlərində Bakıda keşirilmiş sub-regional seminar. Seminarda Ümumdünya Əqli Mülkiyyət Təşkilatından, Almaniya, Ukrayna, Belarus, Moldova və Türkmənistandan iştirak edən mühazirəçilərlə yanaşı, yerli mühazirəçilər də iştirak etmişlər.

- 2018-ci il iyunun 5-də Bakının Heydər Əliyev Mərkəzində “Bilik və innovasiya iqtisadiyyatına əqli mülkiyyətin dəstəyi” mövzusunda beynəlxalq konfrans; və “Qeyri-maddi aktivlər və qlobal dəyər zəncirləri: İqtisadiyyat innovasiyanın faydalarından necə yararlana bilər?” adlı regional seminar .

Hesabat ilində Agentliyin nümayəndələri ölkə xaricində keçirilən 20-dən artıq beynəlxalq tədbirdə iştirak və çıxış etmişlər. Azərbaycan Respublikasının beynəlxalq əlaqələri ilə bağlı 102 sənəd layihəsi, o cümlədən hökumətlərarası – 41, ölkənin nazirliklərinin və komitələrinin digər ölkələrin aidiyyəti qurumları arasında əlaqələrə aid – 17, MDB üzrə – 11, digər beynəlxalq qurumlarla bağlı – 33 layihəyə dair təklif və rəy hazırlanaraq müvafiq qaydada təqdim edilmişdir.

## 11. İnformasiya mübadiləsi, təhlükəsizliyi və dərcetmə sahəsində görülmüş işlər

2018-ci il ərzində Əqli Mülkiyyət Agentliyinin Aparatında və tabeliyində olan qurumlarda İnformasiya Texnologiyaları (İT) həlləri - informasiya mübadiləsi, informasiya təhlükəsizliyi, sistem və şəbəkə strukturunun yenidən qurulması ilə bağlı bir sıra işlər görülmüşdür.

2018-ci ildə aparılmış struktur dəyişikliyi ilə əlaqədar Əqli Mülkiyyət Agentliyində yeni İPAgency.az Active Directory Mərkəzi İdarətmə Sistemi qurulmuş, əməkdaşlar üçün copat.gov.az domenində yeni e-mail ünvanları yaradılmış, Agentliyin yeni rəsmi saytı www.copat.gov.az hazırlanmış, əvvəlki www.copag.gov.az saytından məlumatlar yeni sayta köçürülmüş, həmçinin yeni imkanlar yaradılmış, o cümlədən vətəndaşların dövlət hakimiyyəti orqanlarına müraciət etmək imkanlarının artırılması və müraciətlərə baxılması nəticələrinin öyrənilməsini asanlaşdırmaq məqsədilə saytda “Məktub yaz”, “Əlaqə” xanaları yaradılmış, bu xanaların daim işlək vəziyyətdə saxlanılması və zərurət yarandığı hallarda yenilənməsi nəzərdə tutulmuşdur.

Bununla yanaşı, Agentliyin tabeliyində olan strukturuna daxil olmayan qurumların, o cümlədən Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin və Respublika Elmi-Texniki Kitabxanasının saytları yaradılmış və fəaliyyəti təmin edilmişdir.

Həmçinin Agentliyin saytının mobil versiyası hazırlanmış, sosial şəbəkələrdə rəsmi səhifəsi açılmış və saytda "Sosial şəbəkələr" bölümündə yerləşdirilmişdir. Agentliyin fəaliyyəti ilə bağlı məlumatlar sosial şəbəkələrdə aktiv şəkildə yayımlanır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 avqust 2018-ci il tarixli 568s nömrəli Sərəncamı ilə ləğv edilmiş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları küçəsi 124 ünvanında olan daşınmaz dövlət əmlakının Agentliyin balansına verilməsi ilə əlaqədar Agentliyin bir sıra şöbələri, o cümlədən tabeliyində olan iki Mərkəz və Respublika Elmi-Texniki Kitabxanası bu ərazidə yerləşdirilmişdir. Qeyd olunan bina ilə Əqli Mülkiyyət Agentliyinin yerləşdiyi Hökumət Evi arasında VPN əlaqəsi qurulmuşdur. Yeni binada ipa.az Active Directory Mərkəzi İdarətmə Sistemi qurulmuş və Aparatın burada olan komputerləri və tabeli qurumların bütün əməkdaşlarının komputerləri qeyd olunan Mərkəzi İdarətmə Sisteminə qoşulmuşdur. Cisco İP-telefoniya "Cisco Call Manager" üzərində quraşdırılmış, Agentliyin struktur bölmələrinin və tabeliyində olan tərkibinə daxil olmayan qurumların yerləşdiyi binalarda işləməsi təmin olumuş, yeni binada təhlükəsizlik və nəzarət sistemi quraşdırılmışdır.

Bununla yanaşı, Patent və Əmtəə Nişanları Ekspertizası Mərkəzində əqli mülkiyyət hüquqlarının obyektləri barəsində daxil olmuş iddia sənədlərinin qanunvericilikdə müəyyən edilmiş qaydada ekspertizasını və əqli mülkiyyət hüquqları obyektlərinin dövlət qeydiyyatını aparmaq, mühafizə sənədlərini vermək və müvafiq məlumatların dərcini həyata keçirmək məqsədi ilə hüquq sahibləri və istifadəçilər haqqında milli informasiya sistemi qurulmuşdur və onun müntəzəm təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülür.

Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsinin 3.1.56-cı maddəsinə əsasən, ÜƏMT-nin Əqli Mülkiyyət Akademiyalarının Qlobal Şəbəkəsi ilə tabeliyindəki qurum vasitəsilə əlaqələri genişləndirmək, informasiya mübadiləsini təşkil etmək və Qlobal Şəbəkənin rəqəmsal kitabxanalarından istifadə etməklə yeniliklər barədə informasiya hazırlamaq vəzifəsi nəzərdə tutulmuşdur.

Bununla əlaqədar Avtomatlaşdırılmış informasiya mübadilə sisteminin yenilənməsi məqsədi ilə aşağıdakı istiqamətlərdə işlərin görülməsi nəzərdə tutulmuşdur:

- Azərbaycanda Əqlı Mülkiyyət sisteminin avtomatlaşdırılması layihəsi üzrə tətbiq olunan IPOA (Intellectual Property of Azerbaijan) sistemindən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT-nin) IPAS (Industrial Property Automation System) sisteminə keçidin mərhələli formada təşkil olunması.
- Tam olaraq elektron formada olan Məlumat Bazasının yeni IPAS serverə inteqrasiya olunması.
- Yeni sistemi İlkin olaraq Əmtəə nişanlarının Ekspertiza şöbəsinə tətbiqi, sonrakı mərhələdə yeni sistemi Sənədlərin qəbulu, İxtira və Reyestr şöbələrinə tətbiq etmək nəzərdə tutulur. IPAS sistemi tam işə düşənədək IPOA sistemi paralel olaraq işləyəcək.

Bunlarla yanaşı, Patent və Əmtəə Nişanları Ekspertizası Mərkəzinin saytında (patent.gov.az) qurumun adının dəyişilməsi ilə bağlı dəyişikliklər aparılmışdır. Mərkəzin IPOA-Əqlı Mülkiyyət sisteminin avtomatlaşdırılması sistemində iddiaçılara göndərilən sorğular, bildirişlər, arayışlar qurumun yeni adına uyğunlaşdırılmışdır.

Mərkəzin bütün işçiləri üçün patent.gov.az domenində mail ünvanları yaradılmış və kompüterlərdə quraşdırılmışdır.

Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin yeni binaya köçməsi ilə əlaqədar komputerlərin müvafiq otaqlarda quraşdırılması və internet şəbəkəsinə qoşulması təmin olumuş, Mərkəzin copag.az adı altında saytı işə salınmış və qurumun fəaliyyəti ilə bağlı məlumatlar sayta daxil edilmişdir. Mərkəzin rəsmi yazışmalarda istifadə etdiyi merkez@copag.gov.az mail ünvanı merkez@copat.gov.az ilə əvəz olunmuşdur. Mərkəzdə istifadə olunan DRM sisteminin Yeni binada işləməsi təmin olunmuşdur.

Respublika Elmi-Texniki Kitabxanasının **y**eni binaya köçməsi ilə əlaqədar komputerlərin müvafiq otaqlarda quraşdırılması və internet şəbəkəsinə qoşulması təmin olumuşdur. Hazırda Elmi-Texniki Kitabxananın fəaliyyətinin tam elektronlaşdırılması istiqamətində iş aparılır. Bununla yanaşı, ALISA (Automated Library Information System of Azerbaijan) sistemi kompleks bir layihə kimi Azərbaycanın Kitabxana sistemini inkişaf etdirmək üçün yaradılmışdır.

Sistem kitabxanadaxili prosesləri və kitabxana-oxucu münasibətlərini tam avtomatlaşdırır və bu proses üçün lazımi mühitin yaradılmasına təkan verir. Proqramın yazılması və quraşdırılmasında əsas məqsəd istənilən kitabxananın sistemə qoşulması və oxuculara göstərilən xidmətin daha operativ təmin olunması, onlayn xidmətlərin yaradılması, kitabxananın daxili proseslərinin tam avtomatlaşdırılmasıdır.

Sistemin onlayn rejimdə çalışması, sistemə dünyanın istənilən nöqtəsindən daxil olmaq imkanı yaradır. Sistemdə kitabxananın bütün fəaliyyəti nəzərə alınıb.

İnformasiya sistemlərinin təhlükəsizliyinin təmin olunması daim diqqət mərkəzində saxlanılmış, bununla əlaqədar mütəmadi olaraq aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirilmişdir:

- Kompüterlərdə istifadəçi şifrələrinin mürəkkəb olması və təyin olunmuş müəyyən vaxtdan bir mütəmadi olaraq avtomatik dəyişməyə əməl edilməsi,
- Windows Server 2012 R2 üzərində Domain Controlleri qurulması və bütün istifadəçilərin bu sistemə inteqrasiya edilməsi,
- İnformasiya təhlükəsizliyi ilə bağlı əməkdaşları məlumatlandırması və təlimlərin keçirilməsi,
- Məlumat mübadiləsi üçün FileServerin nizamlanması və şöbələr üçün müəyyən olunmuş icazələrə uyğun olaraq ümumi paylaşılan qovluqlarda Read-Write icazələrin mexanizminin qurulması,
- Təsdiqlənmiş daxili sənədə uyğun olaraq müvafiq saytlara girişin məhdudlaşdirilması,
- Firewall-da internet üzərindən yalnız lazım olan portların açıq saxlanılması,
- Müəyyən istifadəçilər üçün kənardan qoşulmanın təmin olunması,
- Dəstək, monitorinq, idarəetmə sisteminin formalaşdırılması,
- Daxili və qurumlararası “Ticket” elektron dəstək sisteminin yaradılması ilə bağlı müəyyən işlər görülmüş və tam olaraq tətbiq olunması nəzərdə tutulmuşdur.

Bununla yanaşı, Agentliyin Aparatında və tabeli qurumlarda Elektron Sənəd Dövriyyəsinin tətbiqi planı yaradılmışdır. Bununla:

- Elektron Sənəd Dövriyyəsi (ESD) serverində olan Patent Mərkəzinə aid məlumatların arxiv olunması və gələcəkdə həmin elektron informasiya bazasından məlumatların əlçatan olmasını təmin etmək,

- Serverdə olan digər quruma aid olan məlumat bazasını arxivləşdirmək və yeni yaranacaq quruma təhvil vermək,
- ESD-ni Aparatda və digər tabeli qurumlarda tətbiq etmək,
- ESD ilə təcrubəsi olan əməkdaşları Ümumi şöbəyə cəlb etmək,
- İstifadəçiləri avtomatlaşdırma sistemi ilə bağlı məlumatlandırmaq, təlimlər keçirmək nəzərdə tutulmuşdur.

Hesabat dövründə Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin dövri nəşri - "Sənaye Mülkiyyəti" rəsmi bülleteninin 7 nömrəsi dərc edilmişdir.

Dərc olunan bülletenlər www.patent.gov.az saytında yerləşdirilib. Həmin bülletenlər eyni zamanda Avrasiya Patent İdarəsinin (AAPİ) xüsusi proqramı ilə diskə yazılmaqla ЕАПАТИС məlumat bazasında yerləşdirilmək üçün AAPİ-yə və RosPatent-ə göndərilmişdir.

Bununla yanaşı, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin saytında həmçinin informativ məlumatlar, o cümlədən keçirilən tətbirlər haqqında xəbərlər və fotoşəkillər yerləşdirilib. Mərkəzin fəaliyyəti ilə bağlı sosial şəbəkələrdə məlumatın yayılması il əlaqədər youtube kanalı və facebook səhifəsi yaradılmışdır.

Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin arxivini zənginləşdirmək və ondan istifadəni asanlaşdırmaq məqsədi ilə dərc olunan bülletenlərin bütün nömrələri kağız şəkildə, elektron disklərə yazılmış və arxiv şöbəsində saxlanması təmin edilmişdir. Mərkəzdə quraşdırılmış xüsusi proqramlı kompüterlər və idarəetmə sistemində yarana biləcək nasazlıqların aradan qaldırılması daim nəzarətdə saxlanılır və onların işlək vəziyyətdə olması üçün səriştəli xidmət göstərilir.

Bundan əlavə, Agentliyin təşkilatçılığı ilə keçirilən bütün ölkədaxili və beynəlxalq tədbirlərin proqramları, tələb olunan kitab və qeydiyyat jurnalları, bukletlər Agentliyin müvafiq struktur bölməsi tərəfindən tərtib edilərək çap olunub.

## 12. Kadrların peşəkarlığının artırılması, vətəndaşların qəbulu və kargüzarlığın təşkili

**12.1. Kadrlarla iş və onların peşəkarlığının artırılması.** Hesabat ilində kadrlarla iş və işə qəbulla bağlı prosedurlar dövlət qulluğu sahəsini tənzimləyən normativ hüquqi aktların və Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq aparılmışdır.

Agentlik üzrə cəmi 103 nəfər, o cümlədən Agentliyin Aparatına 29 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə 8 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinə 66 nəfər işə qəbul edilmiş, Agentlik üzrə cəmi 8 nəfər, o cümlədən Agentliyin Aparatından 1 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzindən 3 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzindən isə 4 nəfər öz xahişi ilə işdən azad olunmuşdur.

Hesabat ilinin sonuna Agentlik üzrə işçilərin cəmi sayı 143 nəfər, o cümlədən Agentliyin Aparatında 61 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində 20 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzində isə 62 nəfər omuşdur.

"Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən, ləğv edilmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyinə verilmişdir. Kitabxanada hesabat ilinin əvvəlində - 135 nəfər işçi

olmuş, il ərzində 36 nəfər işdən çıxmış, hesabat ilinin sonuna işçilərin sayı 99 nəfər təşkil etmişdir.

Hesabat dövründə 3 nəfərə müvafiq ixtisas dərəcəsi verilmişdir.

Agentlik üzrə əmr layihələrinin hazırlanması, verilmiş əmrlərin təyinatı, aidiyyəti üzrə çatdırılması və onların icrasına nəzarət təmin edilmiş, həmçinin kadrlarla bağlı yenilənmiş məlumatların mütəmadi olaraq Dövlət Qulluqçularının Reyestri İnformasiya Sisteminə daxil edilməsi təmin edilmişdir.

Hesabat ilində kadrların peşəkarlığının artırılması istiqamətində fəaliyyət davam etdirilmiş, Agentliyin 1 nümayəndəsi ÜƏMT və ÜTT-nin kurslarında, 1 nəfər isə Moskva şəhərində "Softline Education" təhsil mərkəzində "Windows Powershell ilə idarəetmənin avtomatlaşdırılması" üzrə İT mütəxəssislər üçün nəzərdə tutulmuş təlim kursunda iştirak etmiş, tabelikdə olan qurumlardan 4 nəfər Avropa İttifaqı – Şərq Tərəfdaşlığı Proqramı üzrə onlayn təlimlərdə iştirak etmiş və sertifikat almışlar.

Bundan əlavə 16 oktyabr 2018-ci il tarixində ixtira və faydalı modellərin ilkin ekspertizası və axtarış ilə məşğul olan işçilər üçün 1 günlük təlim təşkil edilmiş və təlimdə faydalı model, milli qanunvericiliyə uyğun olaraq faydalı modellərin patentlə mühafizəsi ilə bağlı bilikləri təkmilləşdirilmişdir.

14 dekabr 2018-ci il tarixində ixtira və faydalı modellərin ekspertizası şöbəsinin əməkdaşları üçün "İddia sənədlərində ixtira obyektinin kifayət qədər açıqlanması" mövzusunda 1 günlük təlim keçirilmiş, təlim çərçivəsində ixtira, ixtiraların milli qanunvericiliyə uyğun olaraq mühafizəsi, ixtira obyektləri, ixtiraların patentlə mühafizəsinin şərtləri, ixtira üçün patent hüquqlarının tərtib edilməsi, Patent verilməsi üçün iddia sənədi, dəyişikliklər və geri çağırılma, Məxfi ixtiralar və s. mövzulara dair məruzələr dinlənilmişdir.

19 dekabr 2018-ci il tarixində Avrasiya Patent Təşkilatı tərəfindən Təlim Mərkəzində "ЕАПВ – онлайн" sistemi ilə tanışlıq və onlayn iddia sənədlərinin verilməsi mövzusunda 1 günlük təlim keçirilmiş, Avrasiya Patent Təşkilatının ekspertlərinin məruzələri dinlənilmişdir. Bununla yanaşı, Patent və Əmtəə Nişanları Mərkəzi mütəxəssislərinin də iştirak etdiyi regional seminarda 2 gün ərzində 13 nəfər ÜƏMT və yerli ekspertlər tərəfindən təqdimatar olmuş, tədbirə 120 nəfər iştirakçı qatılmışdır.

**12.2. Kargüzarlığın təşkili.** Hesabat dövründə Agentliyə 2362 sənəd daxil olmuşdur. Onlardan 56 sənəd Azərbaycan Respublikasının Prezidenti Administrasiyasından, 2 sənəd Milli Məclisdən, 668 sənəd Nazirlər Kabinetindən, 3 sənəd Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilindən, 294 sənəd nazirlik və komitələrdən, 96 sənəd məhkəmələrdən, 11 sənəd Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən, 194 sənəd hüquqi şəxslərdən, 123 sənəd fiziki şəxslərdən, 6 sənəd ictimai birliklərdən, 206 sənəd xarici ölkələrdən, 588 sənəd bilavasitə əsərlərin qeydiyyatı ilə bağlı, 115 sənəd isə Əqli Mülkiyyət Agentliyinin Apellyasiya Şurasına daxil olmuşdur.

Sənədlərin Agentlikdə hərəkəti, təşkilata daxil olduğu andan icra edildiyi və ya göndərildiyi anadək, onların dövriyyəsi və icrasına ciddi riayət olunmuşdur.

Kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun aparılmışdır.

Hesabat dövründə Agentlikdən 995 sənəd göndərilmişdir. Onlardan 44 sənəd Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, 8 sənəd Milli Məclisə, 92 sənəd Nazirlər Kabinetinə, 2 sənəd Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə, 236 sənəd nazirlik və komitələrə, 13 sənəd Azərbaycan Respublikasının

Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə, 7 sənəd Hesablama Palatasına, 67 sənəd məhkəmələrə, 179 sənəd hüquqi şəxslərə, 86 sənəd fiziki şəxslərə, 7 sənəd ictimai birliklərə, 87 sənəd xarici ölkələrə, 167 sənəd isə bilavasitə Apellyasiya Şurasına daxil olan sənədlərlə bağlı göndərilmişdir.

**12.3. Vətəndaşların qəbulu.** Vətəndaşların qəbulu və qəbulla əlaqədar kargüzarlığın aparılması üzrə iş "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"na uyğun həyata keçirilmişdir.

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilmiş vətəndaşların problemlərinin operativ şəkildə həll edilməsi üçün Agentliyin səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülmüşdür..

Hesabat dövründə vətəndaşlardan birbaşa Agentliyə 690 müraciət (onlardan 88 elektron qaydada), 2 müraciət isə aidiyyəti baxılmaq üçün digər təşkilatlardan daxil olmuşdur (cəmi 692). Müraciətlərin 563-ü müsbət, 2-si qismən həll edilmiş, 56-na müvafiq izahat verilmiş, 7-si əsassız sayılmış, 3-ü baxılmaq üçün aidiyyəti təşkilata göndərilmiş, 61-i hazırda icradadır.

Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına dair illik hesabat formaları hər il nəzərdə tutulduğu qaydada Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilir.

## 13. Kollektiv idarəetmə sahəsində aparılan işlər.

2018-ci ildə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına, o cümlədən "Azərbaycan müəllifləri" İctimai Birliyinə və "Azərbaycan Professional Kinorejissorlar Gildiyası"na hər cür metodiki və hüquqi yardım göstərilmiş, fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik edilmiş, bütövlükdə kollektiv idarəetmə sahəsi Əqli Mülkiyyət Agentliyinin fəaliyyətində diqqət mərkəzində saxlanmışdır.

Bununla yanaşı, bu sahədə mövcud olan çatışmazlıqlar və kollektiv idarəetmə təşkilatlarının fəaliyyətində yol verilən nöqsanlar onların nəzərinə çatdırılmış, o cümlədən musiqili əsərlərin müəlliflərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən "Azərbaycan Müəllifləri" İctimai Birliyi tərəfindən yığılan qonorar məbləğinin az olması, İctimai Birliyin fəaliyyətinin kifayət qədər şəffaf və səmərəli olmaması, infrastrukturunun köhnə olması və rəqəmsal dövrün tələblərinə cavab verməməsi "Azərbaycan Müəllifləri" İctimai Birliyinin rəhbərliyinin nəzərinə çatdırılmış, həmçinin İctimai Birliyin mövcud qanunvericilik aktlarına uyğun olaraq, akkreditasiyadan keçməsi tələb edilmişdir.

Hesabat ilində "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununun 41-ci maddəsinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2011-ci il 22 sentyabr tarixli 149 nömrəli qərarı ilə təsdiq edilmiş "Müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların qeydiyyatdan (akkreditasiyadan) keçirilməsi Qaydaları"na uyğun olaraq, 2018-ci ildə "Azərbaycan Kinorejissorlar Gildiyası" İctimai Birliyinin akkreditasiyası növbəti 5 il müddətinə uzadılmışdır.

Əqli Mülkiyyət Agentliyinin nümayəndələri kollektiv idarəetmə sahəsində beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığı davam etdirmiş, Agentliyin nümayəndəsi Müəlliflər və Bəstəkarlar Təşkilatlarının Beynəlxalq Konfederasiyasının (CISAC) Avropa Regional Ofisi tərəfindən 2018-ci il 11-12 dekabr tarixlərində Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilmiş müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi üzrə hüquqi məsələlərə həsr olunmuş seminarda iştirak etmişdir.

Qeyd olunan beynəlxalq tədbirdə müzakirələr zamanı Agentliyin nümayəndəsi tərəfindən ölkəmizdə son vaxtlar əqli mülkiyət sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər, o cümlədən instutisional islahatlar, habelə əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün istifadəsi və reprosurətçıxarma ilə bağlı normativ hüquqi aktlar barədə geniş məlumat verilmiş, bu sahədə işlərin təşklində kollektiv idarəetmə təşkilatlarının fəaliyyətinə dəstək verildiyi qeyd olunmuş, belə tədbirlərin göstərilən sahələrdə əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsi baxımından çox faydalı olduğu vurğulanmışdır.

Kollektiv idarəetmə təşkilatları tərəfindən 2018-ci ilə görə müəlliflər üçün yığılmış qonorarın həcmi barədə müvafiq informasiyalar təqdim edilmədiyinə görə, onların il ərzində yığdıqları qonorar barədə məlumat bu Hesabatda öz əksini tapmamışdır.

Bununla yanaşı, kollektiv idarəetmə təşkilatları ilə əhatə olunmayan sahələrdə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi və istifadəyə görə onlar üçün qonorar yığılması işi təşkil olunmuş, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi, kollektiv idarəetmə təşkilatları ilə dövlət orqanları arasında əlaqələrin inkişafı, müəllif-hüquq subyekti kimi onların fəaliyyətinə dövlət nəzarətinin formaları və hüquqi əsaslarının təkmilləşdirilməsi istiqamətlərində fəaliyyət davam etdirilmişdir.

Eyni zamanda müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi ilə bağlı keçirilən tədbirlərdə İnternetdə rəqəmli hüquqların idarə olunmaması və s. məsələlər qeyd olunmuş, həmçinin Agentlik tərəfindən hazırlanmış və həyata keçirilən infrastruktur layihələri, o cümlədən one-stop-shops formatında onlayn lisenziyalaşma və monitorinq (müəllif hüququ ilə qorunan hər hansı bir kontent üçün bir pəncərə prinsipi) sistemi barədə məlumat verilmişdir.

**Müəllif qonorarı.** 2018-ci ildə müəlliflərin əmlak hüquqlarının idarəçiliyini təmin etmək nəticəsində 93981 manat müəllif qonorarı yığılmış, qonorar hesablanmış yerli və xarici müəlliflərin adları, soyadları və mənsub olduqları ölkələr barədə məlumatların dəqiqləşdirilməsi istiqamətində mütəmadi iş aparılmışdır.

Agentliyin bank hesabına köçürülmüş 100420 manat müəllif qonorarının təyinatı üzrə bölgüsü aparılmış, köçürmə yolu ilə 60979 manat müəllif qonorarı ödənilmişdir. Qonorardan tutulmuş gəlir vergisi 7437 manat vəsait Dövlət büdcəsinə köçürülmüşdür.

Son illər xidmət edilən müəlliflərin sayında davamlı olaraq artım müşahidə olunmuşdur. Məsələn, 2012-ci ildə xidmət göstərilən müəlliflərin sayı 3188, 2013-cü ildə 3190, 2014-cü ildə 3200, 2015-ci ildə isə 3231,2016-cı ildə 3322, 2017-cı ildə 3348 2018-cı ildə isə 3380 nəfər olmuşdur.

2018-ci ildə Agentliyin qonorar yığımını əhatə etdiyi istifadəçi təşkilatlarda- Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində olan teatr-tamaşa müəssisələrində müəllif qonorarının hesablanması və ödənilməsi üzrə müəyyən iş aparılmışdır. Göstərilən dövr ərzində əsərlərdən istifadəyə görə qonorar ödəməyən, həmçinin qonorar üzrə borc qalıqları olan teatr-konsert müəssisələri ilə əlaqə saxlanılmış, müəllif qonorarının düzgün hesablanması və vaxtında Agentliyin

hesabına köçürülməsini təmin etmək üçün operativ araşdırmalar aparılmış, müvafiq üzləşmə aktları tərtib edilmiş, borc qalıqlarının miqdarı dəqiqləşdirilmişdir.

2018-ci ilin statistik göstəriciləri qonorarın məbləğinin və qonorar hesablanmış müəlliflərin sayının artdığını göstərir. Hesablanmış qonorar barədə 362 nəfər müəllifin müraciətlərinə baxılmış, müvafiq izahatlar verilmişdir.

Müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə olunması və qarşılıqlı yardım göstərilməsi sahəsində Müəllif Hüquqları Agentliyi və Rusiya Müəllif Cəmiyyəti arasında bağlanmış sazişin müddəalarına uyğun olaraq müəlliflərin qonorarının qarşılıqlı hesablaşma hesabına köçürülməsi yönümündə danışıqlar aparılmışdır. Agentlik Rusiya Müəllif Cəmiyyətinin hesabına 23748 manat qonorar köçürülmüşdür.

## 14. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri

Azərbaycan Respublikası Prezidentinin büdcə vəsaitlərinə münasibətdə verdiyi tapşırığa uyğun olaraq, hesabat ilində büdcə vəsaitləri qənaətlə xərclənmişdir. Belə ki, 2018-ci ildə Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin maliyyələşməsi həmin il üçün Müəllif Hüquqları Agentliyinin saxlanmasına dövlət büdcəsində nəzərdə tutulan 691357 manat vəsait daxilində aparılaraq büdcədən əlavə vəsait istənilməmişdir. İllik smeta xərclərinə uyğun olaraq bu vəsaitin 488881 manatı əmək ödənişlərinə (o cümlədən, 408544 manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 10040 manat ştatdankənar işçilərin əmək haqqının ödənilməsinə, 64394 manat sair pul ödənişlərinə, 5903 manat müavinət və iş qabiliyyətinin itirilməsinə görə), 108670 manat DSMF-na ayırmalara, 93462 manat vəsait Agentliyin saxlanması üçün digər maddələr üzrə xərclənmişdir. Cəmi faktiki büdcə xərcləri 691013 manat olmuşdur.

2018-ci ilin Dövlət büdcəsindən əqli mülkiyyət hüquqlarının təminatı ilə bağlı 220102 manat vəsait nəzərdə tutulmuşdur. İllik smeta xərclərinə uyğun olaraq həmin vəsaitin 46816 manatı Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin işçilərinin əmək haqqının və əməyin ödənilməsi ilə bağlı sair pul ödənişlərinə, 21344 manat DSMF-na, 14995 manat vəsait isə digər xərclərə sərf olunmuşdur.

Hesabat ilində sair xərclər maddəsi üzrə: Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin saytının yaradilmasına 10450 manat, digər maşın və avadanlığın alınmasına 3500 manat, serverin saxlanmasına, təmirinə və xidmət edilməsinə 2500 manat, icarə haqqına 38000 manat, tədbirlərin təşkilinə 55550 manat, abunə haqlarına 3000 manat, qəzet-jurnal üçün abunə xərclərinə 2000 manat, dayanacaq haqqı 4000 manat, nəzarət markasının verilməsi üçün sənədləşmənin elektron edilməsi üçün proqram təminatı 6100 manat və 11245 manat digər xərclər üçün xərclənmişdir. Cəmi faktiki xərc 219500 manat olmuşdur.

Bir çox spesifik mühasibat sənədlərinin yeni formaları elektron formatda Milli Mühasibat Uçotu Standartlarına uyğun (öhdəlik sənədi, malların (iş və xidmətlərin) alış sənədi, kassa xərclərinin sifarişi, qonorar xərclərinin sifarişi, əmək haqqının hesablanması, əmək haqqının ödənişi cədvəli, əmək haqqının Visa elektron kart vasitəsi ilə verilməsi, qonorar ödənişi cədvəli, qonorarın Visa elektron kart vasitəsi ilə verilməsi, rüblük ümumi əməliyyatlar, dövriyyə balansı, bank büdcə əməliyyatları, bank qonorar əməliyyatları) tətbiq edilmişdir.

Agentlik üzrə vergi hesabatlarının il ərzində Nazirlər Kabinetinin 2007-ci il 27 iyul tarixli 120 №-li qərarı ilə təsdiq edilmiş “Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsi Qaydası”na uyğun olaraq elektron sənəd formasında təqdim

olunması təmin edilir. Büdcə təşkilatları üçün Maliyyə və Mühasibatlıq hesabatları (BTMMH) avtomatlaşdırılmış informasiya sisteminin tətbiqi üzrə işlər görülür.

2018-ci ildə Əqli Mülkiyyət Agentliyinin fəaliyyəti nəticəsində əldə olunan vəsait hesabına Agentliyin Aparatının işçilərinə 46771 manat, ezamiyyə xərclərinə 9318 manat, əsas vəsait alınmasına 4457 manat, proqram təminatına 6281 manat, brandbook hazırlanmasına 3000 manat, qəzet və jurnallara abunə haqqına 4915 manat, əsas vəsaitlərin qiymətləndirilməsinə 2600 manat, dəftərxana və təsərrüfat xərclərinə 3870 manat, digər xərclərə 7054 manat,

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanının 4.8-ci bəndinə uyğun olaraq, Əqli Mülkiyyət Agentliyinin tabeliyinə verilmiş Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin və Əqli Mülkiyyət Agentliyinin tabeliyində yaradılan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin 01 avqust 2018-ci il tarixdən maliyyələşmə xərcləri büdcə hesabına yox, Agentliyin fəaliyyəti nəticəsində əldə olunan vəsaiti hesabına ödənilmişdir. O cümlədən:

Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanları Ekspertiza Mərkəzinin işçilərinə 161661 manat əmək haqqı və sair pul ödənişləri, 34742 manat dsmf-na ayırmalar, Mərdanov Qardaşları 124 ünvanında yerləşən Agentliyin balansında olan daşınmaz əmlak (bina) üçün komunal xərclər: mühafizə 12914 manat, elektrik enerjisi 4233 manat, internet abunə haqqı 8587 manat və digər saxlanma xərcləri 64405 manat ödənilmişdir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin işçilərinə 20775 manat əmək haqqı və sair pul ödənişləri, 4581 manat dsmf-na ayırmalar ödənilmişdir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanları Ekspertiza Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 oktyabr 2018-ci il 444 nömrəli qərarına əsasən Mərkəz 17 oktyabr 2018-ci il tarixdə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyində qeydiyyatdan keçmişdir.

Agentliyin əldə olunan vəsaiti hesabına noyabr və dekabr aylarında Patent və Əmtəə Nişanları Ekspertiza Mərkəzinin nizamnamə fonduna əlavə edilməklə 162599 manat saxlanma xərci ödənilmişdir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 oktyabr 2018-ci il 443 nömrəli qərarına əsasən Mərkəz 17 oktyabr 2018-ci il tarixdə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyində qeydiyyatdan keçmişdir.

Agentliyin əldə olunan vəsaiti hesabına noyabr və dekabr aylarında Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin nizamnamə fonduna əlavə edilməklə 33232 manat saxlanma xərci ödənilmişdir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin əldə olunan vəsait hesabına cəmi yekun xərci 2018-ci ildə 595995 manat olmuşdur.

2018-ci ilin beş ayı ərzində Agentliyin fəaliyyəti nəticəsində onun hesabına 18820110 rubl (dörd yüz əlli doqquz min yeddi yüz yetmiş manat) vəsait daxil olmüşdur.

Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsinin 1.7-ci bəndinə əsasən, Agentliyin əməkdaşları dövlət qulluqçularına bərabər tutulduğunu nəzərə alaraq, 2019-cu ilin dövlət büdcəsindən yalnız həmin işçilərin əməyinin ödənilməsi üçün vəsait ayrılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanının 2-ci bəndinə uyğun olaraq, ləğv edilmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası Əqli Mülkiyyət Agentliyinin tabeliyinə verilmişdir. Kitabxana 126 ştat vahidinə malikdir və onun fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir.

2018-ci ildə Respublika Elmi-Texniki Kitabxanası öz fəaliyyətini ləğv edilmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində olarkən ona ayrılmış 481623,00 manat büdcə vəsaiti daxilində aparmışdır.

Respublika Elmi-Texniki Kitabxanasının Əqli Mülkiyyət Agentliyinə təqdim etdiyi maliyyə hesabatına əsasən, Kitabxana 2018-ci ildə büdcədən ona ayrılmış 481623,00 manat vəsaitdən il ərzində 417519,38 manatını faktiki xərcləmiş, 25999,62 manat xərclənməmiş qalıq vəsait isə büdcəyə qaytarılmışdır.